Bu bir xalq qəzetidi
ƏDALƏT

## Müdafiə Nazirliyi: "Nöqsanlara yol verən bəzi vəzifəli şəxslər cəzalandırılıb"



**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə qısa müddət ərzində mütəxəssislərdən ibarət bir neçə komissiya hərbi birliklərdə şəxsi heyətin yerləşməsi və məişət şəraitinin yoxlanılmasını həyata keçirib.**

Müdafiə Nazirliyindən Adalet.az -a verilən məlumata görə, kompleks yoxlamalar nəticəsində ümumilikdə təminat məsələlərində sistemli problemlər aşkar edilməyib:

”Bununla belə bəzi cüzi nöqsanlar müəyyən edilib və aşkar olunan bu çatışmazlıqlar dərhal aradan qaldırılıb. Vəzifələrinin icrasına səhlənkar yanaşan, nöqsanlara yol verən bəzi vəzifəli şəxslər cəzalandırılıb və onlar barəsində müvafiq tədbirlər görülüb”.

## Şuşada DTX-nın yeni inzibati binasının açılışı olub

Bax:səh-2

## Sahil Babayev: "600 min şəxsə 190 manat ödəniləcək"



**Bu il işsiz və pandemiya səbəbindən gəlirlərini itirmiş 600 min şəxsə 352 milyon manat məbləğində birdəfəlik yardım- 190 manat ödənilib.**

Adalet.az-ın məlumatına görə, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında əmək və əhalinin sosial müdafiə naziri Sahil Babayev deyib.

**Nazir qeyd edib ki, Nazirlər Kabinetinin qərarına əsasən, 600 min şəxsə bu vəsait yenidən ödəniləcək. Onun sözlərinə görə, ümumilikdə bu il həmin şəxslərə ödəniləcək vəsaitin məbləği 460 milyon manatdan artıq olacaq.**

## *Növbəti il neftdən gələn gəlirin 4 faiz azalması nəzərdə tutulur*



**Növbəti ildə neft sektorundan gələn gəlirin xüsusi çəkisinin 4 faiz azalması nəzərədə tutulur.**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında maliyyə naziri Samir Şərifov deyib.

Nazir bildirib ki, əsas məqsədlərdən biri qeyri-neft sektorunun gəlirlərdə xüsusi çəkisinin artırılmasıdır.

”Gələn il qeyri-neft sektorundan 5 milyard 674 milyon manat vergi daxilolmaları gözlənilir”.

S.Şərifov vurğulayıb ki, koronavirus pandemiyası ilə əlaqədar bir sıra vergi güzəştlərinin tətbiqinə nəzərə alaraq bu il mənfəət vergisində artım gözlənilmir.

*Mehman Cavadoğlu*

## Müxalifət son və qəti döyüşə başlayıb

Bax:səh-4

*Cavid Qurbanov*

## Xudayar Yusifzadəyə



*Şeir "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş Xudayar Yusifzadəyə həsr edilib.*

**Duman gəldi, dağ dumanda əridi,
Yağı düşmən ətrafları bürüdü.
Ana yurdun bülbül səsli igidi,
Nəğmələrin Səndən qaldı yadigar,
Şəhid balam, şəhid oğlum, Xudayar!**

**Sən daşıydın , torpağıydın Vətənin,
Ağacıydın, budağıydın Vətənin,
Nəğməli bir qonağıydın Vətənin,
Sən gedəli o dağlara yağdı qar,
Şəhid balam, şəhid oğlum, Xudayar!**

**Unudarmı oba Səni, el Səni?!
Unudarmı çəmən, çiçəkək, gül Səni?!
Unudarmı duman Səni, çən Səni?!
Hər ürəkdə Sənin üçün xeymə var ,
Şəhid balam, şəhid oğlum, Xudayar!**

**Dastan deyib, dastan olan igidim,
Döyüşündə aslan olan igidim,
Şəhidliklə zirvə tutan igidim,
Ruhun cənnət, yerin olsun laləzar,
Şəhid balam, şəhid oğlum, Xudayar!**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 169 (5829) 24 dekabr 2020-ci il
Qiyməti 30 qəpik

# Prezident ad gününü Qubadlıda qarşıladı



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev işğaldan azad edilmiş Qubadlı rayonunda olub.**

**Prezident səfər zamanı əsgərlə görüşüb, onlarla söhbət edib.**

**Ali Baş Komandan görüşdə qeyd edib ki, Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi:**

**"İndi mənə məlumat verilir ki, dünyanın aparıcı ölkələrində, ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir".**

## *Xankəndi aeroportunda hələ də Dağlıq Qarabağın əski parçası dalğalanır*




## Elman Rüstəmov: Bazarda valyuta artıqlığı müşahidə olunub, nəinki qıtlığı



**2020-ci il pandemiya ilə mübarizə şəraitində keçib, qlobal iqtisadiyyat azalıb və proqnozlara əsasən növbəti ildə də azalacaq.**

Adalet.az-ın məlumatına görə, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Mərkəzi Bankın sədri Elman Rüstəmov deyib. E.Rüstəmov bildirib ki, bütün bunlar Azərbaycana da təsir edib, lakin görülən tədbirlər nəticəsində makroiqtisadi sabitlik təmin edilib.

Mərkəzi Bankın sədri qeyd edib ki, Azərbaycanın strateji valyuta ehtiyatları 50 milyard dollar səviyyəsindədir, Mərkəzi Bankın ehtiyatları isə 3 faizə qədər artıb.

Manatın məzənnəsinə gəlincə isə E.Rüstəmov bildirib ki, bununla bağlı heç bir narahatlıq yoxdur. o qeyd edib ki, Azərbaycanda valyuta ehtiyatlarının sabitiyi onu göstərir ki, bazarda valyuta artıqlığı müşahidə olunub, nəinki valyuta qıtlığı".

## *Hindarxın igid oğlu*



**Aprel döyüşləri qəhrəmanı Şəhidimiz Xüsusi Təyinatlı Qüvvələrin giziri Dilsuz Qarayevin doğum günüdür.**

Dilsuz Məmmədağa oğlu Qarayev 23 dekabr 1990-cı ildə Ağcabədi rayonunun Hindarx kəndində anadan olub. Gizir Dilsuz Qarayev 2016-cı ilin aprel ayında Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində (həmin ərazilər artıq işğaldan azad edilib) baş verən "Aprel döyüşləri" zamanı qəhrəmancasına şəhid olub. Aprelin 4-ü isə Dilsuz Qarayev doğulduğu Ağcabədi rayonunun Hindarx kəndində son mənzilə yola salınıb. Dəfn mərasiminə minlərlə rayon sakini ilə yanaşı, şəhidin qulluq etdiyi hərbi hissənin əsgərləri və zabitləri də qatılıb. Dəfn mərasiminin sonunda yaylım atəşi açıldı və gizir Qarayev uğrunda şəhid olduğu torpağa tapşırılıb.

Dilsuz Qarayev ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib.

**CƏNNƏTDƏKİ YAŞIN MÜBARƏK,
RUHUN ŞAD OLSUN ŞƏHİDİM!!!**

## AZƏRBAYCANIN YAŞAYAN KLASSİKLƏRİ

**Anar, Fikrət Qoca, Nəriman Həsənzadə, Çingiz Abdullayev, Çingiz Əlioğlu, Sabir Rüstəmxanlı.**








## Hərbi xidmətə çağırılmış vətəndaşların tərxis edilməsi ilə bağlı rəsmi açıqlama

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi səfərbərlik üzrə hərbi xidmətə çağırılmış vətəndaşların tərxis edilməsi ilə bağlı məlumat yayıb.**

Adalet.az-ın məlumatına görə, nazirliyin "Facebook"dakı rəsmi səhifəsində yerləşdirilən məlumatda deyilir: "Səfərbərlik üzrə hərbi xidmətə çağırılmış bəzi şəxslər, xüsusilə ailəli vətəndaşlarımız, sosial şəbəkələr vasitəsilə nə zaman ehtiyata buraxılaraq evlərinə geri dönəcəkləri ilə bağlı narahatlıq ifadə edirlər. Bu tərəfimizdən anlayışla qəbul olunur.

Bildiririk ki, Müdafiə Nazirliyi tərəfindən onların ehtiyata buraxılması ilə əlaqədar sənədlər hazırlanıb və müvafiq qaydada aidiyyəti qurumlara göndərilib.

Yaxın vaxtlarda bu kateqoriyadan olan şəxslərin mərhələli şəkildə tərxis edilməsi gözlənilir".

*Səxavət Məmməd*

## Həqiqətən bezmişəm, iyrənirəm

Bax:səh-3

## KİVDF fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri: "Ədalət"in iki əməkdaşı...




**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) təşkil edilən fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlandı. Adalet.az KİVDF-nin rəsmi saytına istinadən müsabiqənin nəticələrlərini - siyahını diqqətinizə çatdırır.**

"Ədalət" qəzetinin əməkdaşı Əntiqə Rəşid müəllifi olduğu "İşğaldan azad olunmuş ərazilərimizin turizm potensialı;" yazı müsabiqədə I yerə layiq görülüb. Qəzetin digər əməkdaşı Emin Akif isə "həvənləndirici" yerdə qərar tutub

**Bütün qalibləri təbrik edirik.**

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## Müqəddəs vəsiyyətin yerinə yetirilməsi



**Yeddi dolamanı qalxdılar. Yuxarı qalxdıqca Qarabağın əsrarəngiz təbiəti daha gözəl görünürdü. Yolun sağındakı Tar fabrikini keçdilər. Bu fabrikdə Şuşanın ən mahir ustaları simli alətlər hazırlayırdı, xüsusilə də tar. Çox qiymətsiz idi bu tarlar. Hər adama nəsib olmurdu almaq. İndi də Azərbaycanın bir çox görkəmli tarzənlərində Şuşa ustalarının bu fabrikdə hazırladığı tarlar var. Əvvəlcə bura kiçik bir sex idi. Sonra Ulu Öndər Heydər Əliyevin göstərişi ilə fabrikə çevrildi.**

Bax: səh.2

## GÜNÜN LƏTİFƏSİ



Bir kişi girir bara. Oturub 1 bakal pivə zakaz edir.

Başlayır fikir etməyə. Qapıdan bir qaqaş girir içəri. Gəlir oturur kişinin yanında. Kişinin pivəsini içir və deyir:

**- Nə olub, niyə kefsizsən?**

Adam başlayır ağlamağa və deyir:

**- Mən nə bəxtsiz adamam. Bu gün arvadımla dalaşdım, arvad məni boşadı, işə gecikdim müdür qovdu məni işdən, çıxdım getdim evə ki, arvadla barışım, başqa kişiylə gördüm. Özümü öldürmək istədim, tapança işləmədi, asmaq istədim ip qırıldı. Dedim qazla boğum özümü, borcum var deyə qaz kəsilib. İndi də pivəyə siçan zəhəri qatdım, onu da sən içdin... offf, offfff.**

## Bir sıra dövlət rəhbərləri və siyasi xadimlər Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik ediblər



**Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmondan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu gəlib.**

Adalet.az-ın məlumatına görə, təbrikdə deyilir:

"Hörmətli İlham Heydər oğlu. Doğum gününüz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Müasir Azərbaycanın davamlı inkişaf və firavanlaşma yolunda nailiyyətləri Sizin dövlət başçısı vəzifəsində konstruktiv və uzaqgörən siyasətinizin nəticəsidir. Siz yüksək peşəkarlığınız və qazandığınız həyat təcrübəsi sayəsində bizə dost Azərbaycanın suverenliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsinə böyük töhfə verirsiniz, xalqınızın rifahının və ölkənizin beynəlxalq arenada nüfuzunun artmasını təmin edirsiniz.

Biz ölkələrimizin xalqlarını bir-birinə bağlayan tarixi dostluq, qarşılıqlı anlaşma və dəstək ənənələrinə əsaslanan çoxplanlı Tacikistan-Azərbaycan əlaqələrinin inkişafı üçün Sizin mühüm səylərinizi yüksək qiymətləndiririk.

Yüksək səviyyədə müntəzəm siyasi dialoq iki ölkənin dövlətlərarası əməkdaşlıq münasibətlərinin ardıcıl olaraq möhkəmlənməsinin mühüm amilidir. Əminəm ki, biz xalqlarımızın rifahı naminə bu münasibətləri bundan sonra da dərinləşdirəcəyik.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi arzulayıram".

***

**Xorvatiya Respublikasının Prezidenti Zoran Milanoviçdən:**

"Hörmətli cənab Prezident. Doğum gününüz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulamaqdan şərəf duyuram.

Cənab Prezident, xalqınızın rifahı və tərəqqisi üçün qarşıya qoyulan məqsədlərə çatmaqda Sizə uğurlar diləyirəm.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimizin vətəndaşlarının rifahı üçün qarşılıqlı maraq doğuran hər bir sahədə dostluq münasibətlərinin möhkəmlənməsi və əməkdaşlığın inkişafı üçün bundan sonra da birgə səylərimizi davam etdirəcəyimizə ümidvaram.

Cənab Prezident, Sizə ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

***

**Latviya Respublikasının sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqadan:**

"Hörmətli cənab Prezident. Doğum gününüz münasibətilə həyat yoldaşım İmantsın adından və öz adımdan ən xoş təbriklərimizi və arzularımızı qəbul etməyinizi xahiş edirəm.

Sizə daim möhkəm cansağlığı, xoşbəxtlik, xoş əhval-ruhiyyə arzu edir, xalqınızın sevgisi və dəstəyindən zövq almağı diləyirəm.

Sizin builki doğum gününüz doğma vətəniniz Azərbaycanın uzun müddət işğal altında qalan torpaqlarının azad olunması ilə eyni dövrə təsadüf edir.

Fürsətdən istifadə edərək, ali rəhbərliyiniz və Silahlı Qüvvələrinizin şücaəti sayəsində qazandığınız şanlı Qələbə münasibətilə Sizi bir daha təbrik edirəm. İşğaldan azad etdiyiniz şəhər və kəndlərin yenidən qurulması, torpaqların istifadəyə hazırlanması və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması kimi qarşınızda duran vəzifələrin də uğurla yerinə yetirilməsində Sizə nailiyyətlər diləyirəm.

Əminik ki, dağıdılmış tarixi və mədəni abidələr Sizin fədakar səyləriniz sayəsində bərpa olunaraq bütün dünyaya nümayiş etdiriləcək.

Həmsədrimiz İsmayıl Serageldinin və Qəyyumlar Şurasının üzvlərinin təbriklərinə qoşularaq Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyə görə şəxsən Sizə minnətdarlığımı bildirirəm. Məhz Sizin bizə və missiyamıza etimadınız sayəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi pandemiya şəraitində yaşadığımız 2020-ci ildə sanballı nailiyyətlər əldə edib.

Beynəlxalq səfərlərin və üzbəüz görüşlərin qeyri-mümkün olduğu bir zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi əvvəlki illərdən fərqli olaraq çoxlu sayda həm yüksək səviyyəli onlayn görüşlərin təşkilatçısı, həm də iştirakçısı olub. BMT, Ümumdünya Elm və İncəsənət Akademiyası kimi nüfuzlu təşkilatlardan tutmuş Avropa İttifaqı ölkələri və Çinlə, eləcə də onların aparıcı institutları ilə fəal tərəfdaşlıq etmişik. Şəxsən mən bu il Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə əvvəlki illərlə müqayisədə daha çox vaxt sərf etmişəm.

Əmin ola bilərsiniz ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin getdikcə daha da artan səmərəli fəaliyyəti Azərbaycanın mühüm ölkə kimi nüfuzunun yüksəlməsinə və onun dünyada maraq doğuran məsələlərdə daim yeni dostlar və tərəfdaşlar qazanmasına töhfə verməkdədir.

Cənab Prezident, bir daha Sizə ən yüksək ehtiramımı bildirirəm".

## Şuşada DTX-nın yeni inzibati binasının açılışı olub

**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Şuşa rayon idarəsinin (Rİ) yeni inzibati binasının təntənəli açılışı olmuşdur.**

Adalet.az-ın DTX-nın saytına istinadən xəbər verir ki, tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev, Xidmətin kollegiya üzvləri, Şuşa Rİ-nin əməkdaşları, digər hüquq mühafizə orqanlarının və ərazi üzrə qarnizonun yüksək rütbəli zabitləri iştirak etmişlər.

Əvvəlcə binanın qarşısında 1993-cü ildə düşmən işğalı nəticəsində üç yaşında ikən ailəsi ilə birlikdə Şuşa şəhərini tərk etməyə məcbur qalmış, hazırda rilmiş xidməti müşavirədə çıxış edən general-polkovnik Əli Nağıyev bildirmişdir ki, Ulu öndər Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə müstəqil Azərbaycan bütün sahələrdə durmadan inkişaf edir, günbəgün daha da qüdrətlənir.

Bunun parlaq nümunəsi kimi 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın Müzəffər sərkərdəliyi altında xalqın və dövlətin sarsılmaz birliyi nəticəsində rəşadətli Ordumuz torpaqlarımızı düşmən işğalından azad etmiş, Azərbaycanın çoxəsrlik tarixinin və hərbi uğurlarının yeni şanlı və şərəfli səhi-

DTX-də xidmət edən leytenant U.Bəylərov Dövlət bayrağını qaldırmışdır. Dövlət himni səsləndirilmişdir.

Binanın açılışını bildirən rəmzi qırmızı lent kəsildikdən sonra tədbir iştirakçıları foyedə müstəqil Azərbaycanın



qurucusu və memarı Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə ehtiramlarını bildirərək abidəsi önünə gül dəstələri qoymuşlar. Həmçinin Ulu Öndərin və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dövlətçilik fəaliyyətini, Azərbaycan təhlükəsizlik orqanlarının tarixini əks etdirən fotostendlərə baxmışlar.

Tədbir iştirakçıları Azərbaycan Respublikasının hüquq mühafizə siyasətinin Dağlıq Qarabağ ərazisində uğurla həyata keçirilməsinin növbəti təcəssümü olaraq DTX Şuşa Rİ-nin müasir üslubda təmir edilmiş yeni inzibati binasının otaqları və əməliyyatçıların iş şəraiti ilə tanış olmuşlar.

DTX-nin kollegiya üzvlərinin və Şuşa Rİ-nin rəhbərliyinin iştirakı ilə keçi-

fələrini yazmışdır. Dövlətimizin başçısı tərəfindən hüquq mühafizə orqanlarının inkişafına daim diqqət göstərildiyini vurğulayan general-polkovnik Əli Nağıyev, DTX Şuşa Rİ-nin yeni inzibati binasının istifadəyə verilməsinin də məhz bu qayğının bariz göstəricisi olduğunu qeyd etmişdir. DTX-nin rəisi əməkdaşların məsuliyyətli, eyni zamanda böyük etimad olaraq Şuşa şəhərində öz xidmətlərini daha səmərəli və peşəkar təşkil etmələri üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirmişdir. Xidməti müşavirədə DTX Şuşa Rİ-nin şəxsi heyəti qarşısında konkret vəzifələr qoyulmuşdur.

General-polkovnik Əli Nağıyev Şuşa Rİ-nin əməkdaşlarını bu əlamətdar hadisə münasibətilə bir daha təbrik etmiş və uğurlar arzulamışdır.

**Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Şuşa qarnizonunda xidmət edən hərbi qulluqçular ilə görüşmüş, onlara DTX-nin bayram sovqatları təqdim edilmişdir. Sonra tədbir iştirakçıları Şuşa şəhərində qulluq keçən hərbçilər üçün DTX-nin Mədəniyyət mərkəzi tərəfindən məşhur Cıdır düzündə 30 ildən sonra ilk dəfə təşkil olunmuş konsert proqramına tamaşa etmişlər.**

## FHN-dən sürücülərə müraciət: "Avtomobillərinizi yalnız təyin olunmuş yerlərdə park edin"

**Fövqəladə Hallar Nazirliyi (FHN) Dövlət Yanğın Nəzarəti Xidmətinin avtonəqliyyat vasitələri sahiblərinə müraciət edib.**

FHN-in Mətbuat Xidmətindən Adalet.az -a daxil olan müraciətdə deyilir:

"Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə 14 dekabr 2020-ci il tarixindən ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiqi və hərəkət məhdudiyyətinin müəyyən olunması avtomobillərdən istifadəni kəskin azaldıb və avtonəqliyyat vasitələri əsasən yaşayış binalarının həyətyanı sahələrində park edilib.




Bir sıra hallarda pərakəndə şəkildə, binaların həyətlərinə girişlərdə, avtomobil yollarının hərəkət hissəsində və ya yanğına qarşı su təchizatı sistemlərinin bilavasitə yaxınlığında park edilmiş avtomobillər fövqəladə hadisə zamanı xilasetmə, yanğınsöndürmə və digər iri qabaritli xüsusi təyinatlı avtomobillərin hərəkətinə maneə yaradır, habelə yanğınların söndürülməsi zamanı su hovuzları və hidrantlardan suyun götürülməsini çətinləşdirir, bəzi hallarda isə mümkünsüz edir. Son zamanlar baş verən yanğınların təhlili bu istiqamətdə zəruri tədbirlərin görülməsini tələb edir.

Qeyd olunanları nəzərə alaraq, baş verə biləcək yanğın və digər fövqəladə hadisələr zamanı xilasetmə və yanğınsöndürmə avtomobillərinin, digər iri qabaritli xüsusi təyinatlı texnikaların binaların həyətinə maneəsiz daxil olması, çevik şəkildə döyüş vəziyyətinə gətirilməsi və əməliyyatların effektli keçirilməsi, habelə su hovuzları və hidrantlardan rahat istifadə üçün vətəndaşlardan avtomobillərini yalnız təyin olunmuş yerlərdə, bir-biri ilə ara məsafəsi gözləməklə, digər avtomobillərin sərbəst keçid imkanı təmin olunmaqla park etmələri xahiş olunur".

## Türkiyəli hərbi istehkamçılar mühəndis təminatı üzrə məşqlər keçirir



**Türkiyə Silahlı Qüvvələrinin ölkəmizdə olan minadan təmizləmə üzrə heyəti xüsusi hazırlanmış mühəndis şəhərciklərində mühəndis təminatı tapşırıqlarının yerinə yetirilməsi üzrə məşqlər keçirir.**

Bununla bağlı Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, məşqlər zamanı istehkamçılar ərazinin kəşfini aparır, xüsusi avadanlıqdan və təlim keçmiş itlərdən istifadə etməklə minaların aşkar edilməsi və zərərsizləşdirilməsi üzrə təlim tapşırıqlarını icra edir.

Hazırlıq prosesi bitdikdən sonra türkiyəli mütəxəssislər azad edilmiş Azərbaycan torpaqlarının minalardan təmizlənməsi prosesinə cəlb olunacaq.

*Aqil ABBAS,*
*yazıçı, Milli Məclisin deputatı*

# Müqəddəs vəsiyyətin yerinə yetirilməsi

**Yeddi dolamanı qalxdılar. Yuxarı qalxdıqca Qarabağın əsrarəngiz təbiəti daha gözəl görünürdü. Yolun sağındakı Tar fabrikini keçdilər. Bu fabrikdə Şuşanın ən mahir ustaları simli alətlər hazırlayırdı, xüsusilə də tar. Çox qiymətsiz idi bu tarlar. Hər adama nəsib olmurdu almaq. İndi də Azərbaycanın bir çox görkəmli tarzənlərində Şuşa ustalarının bu fabrikdə hazırladığı tarlar var. Əvvəlcə bura kiçik bir sex idi. Sonra Ulu Öndər Heydər Əliyevin göstərişi ilə fabrikə çevrildi.**

**Bu da möhtəşəm Şuşa qalası. Sultan bəy Sultanovun qulağını kəsdiyi Andranikə can verməyən Şuşa qalası.**

**Bu da qalanın yamacındakı Ərim gəldi. Xanımlar yığışardılar bura - Arana getmiş, döyüşlərə getmiş ərlərini gözləyərdilər. Dolamaları qalxıb at belində kimi görsələr, hamı çığırışardı ki, ərim gəldi. Burada sevinənlər də olmuşdu, göz yaşı axıdanlar da.**

**Və nəhayət, Ərim gəldini keçib Gəncə qapısından varid oldular Şuşaya.**

**Gənc İlham Əliyev ilk dəfəydi Şuşaya gəlirdi...**

**Gün gələcəkdi... bu şəhərə Azərbaycan xalqının xilaskarı kimi, bir sərkərdə kimi girəcəkdi. O günə hələ vardı...**

**...Şuşanın tarixini çox gözəl bilirdi. Həm kitablardan oxumuşdu, həm də atası Heydər Əliyevdən eşitmişdi.**

**Çox gözəl bilirdi ki, 1870-ci ildə bu şəhərin əsasını Çingiz xanın nəslindən olan Pənah xan qoyub. Bu şəhər də, bu qala da 4 il müddətinə tikilib və Qarabağın paytaxtı elan olunub. Və təkcə Qarabağınmı? Xeyr, bütün Azərbaycanın. Bu şəhər azərbaycanlılar üçün Kəbə kimi müqəddəsdir. Və bu şəhərin torpağı İmam Hüseynin torpağı kimi tütyədir. Və bu şəhər bir əsrboyu ermənilərin sinəsinə sancılmış bir xəncərdir.**

**Bu da Gəncə qapısı, bu da Şuşa şəhəri.**

**Uzun illər ermənilərin hücumuna məruz qalmış, yandırılmış və Azərbaycan hökumətinin laqeyd yanaşdığı, hətta bir ara Xankəndiyə tabe etdirilmiş bu şəhər Pənah xandan sonra ikinci ömrünü Heydər Əliyevin hakimiyyətə gəlişiylə yenidən yaşamağa başlayaraq Qarabağın paytaxtına çevrilmişdi.**

**Ulu Öndər Heydər Əliyev bu şəhərdə təkcə sanatoriyalar, istirahət mərkəzləri tikdirməmişdi, təkcə abadlıq işləri aparmamışdı, həm də elm-təhsil müəssisələri açdırmışdı. Əslində Heydər Əliyev bu şəhəri yenidən Qarabağın qeyri-rəsmi paytaxtı etmişdi.**

**Və bu şəhəri Ümumittifaq istirahət və turizm məkanına çevriləcəkdi...**

**...Gün gələcəkdi Prezident İlham Əliyev bu şəhəri təkcə azərbaycanlıların yox, eləcə də türk dünyasının paytaxtı elan edəcəkdi...**

**...Əvvəlcə Heydər Əliyev bu şəhərin abidələrini bərpa edəcəkdi, məscidlərini bərpa edəcəkdi, muzeyə çevirəcəkdi. Bu şəhərdən çıxmış böyük korifeylərin abidələrini qoyduracaqdı, ev-muzeylərini yaradacaqdı: Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün...**

**... Və gün gələcəkdi erməni faşizmi bu abidələri məhv edəcəkdi, muzeyləri dağıdacaqdı. Və gün gələcəkdi İlham Əliyev həmin abidələri yenidən ucaldacaqdı, ev-muzeylərini bərpa edəcəkdi. Özü də təkcə onların yox, Kərim bəy Mehmandarovun, Əhməd Ağaoğlunun, Mirmöhsün Nəvvabın, Məhəmməd ağa Müctehidzadənin (Ağdam məscidində sonuncu azan oxuyan Hafiz Sədrzadənin atası) və sair və ilaxır. Hələ o günə vardı...**

**...Bütün şəhər Heydər Əliyevin pişvazına çıxmışdı, əllərində gül-çiçək, gözlərində sevinc. Atası ilə səfərə çıxan İlham Əliyev də heyranlıqla camaatın bu sevincini, bu sevgisini izləyirdi.**

**Bu da Vaqifin məqbərəsi. Heydər Əliyev bir qış günündə, qarlı-şaxtalı bir havada bu məqbərənin açılışını etmişdi. Və bu məqbərəni tikdirmək üçün Moskvada, xüsusilə bu məqbərənin tikilməsini istəməyən yüksək çinli ermənilərlə çox üz-göz olmuşdu. Amma həmişə qalib olduğu kimi, yenə də qalib olmuşdu və bu möhtəşəm məqbərəni ucaltdırmışdı. Bu məqbərə də Dağlıq Qarabağda yaşayan ermənilərin ürəyinə saplanmış bir xəncər idi.**

**Açılışa da Azərbaycanın görkəmli şair, yazıçı, rəssam, qısası, ziyalılarını dəvət etmişdi. Və hər il keçiriləcək Vaqif poeziya günlərinin beləcə əsası qoyulmuşdu.**

**Azərbaycanın rəhbəri Heydər Əliyevin pencəyini tutmağı özlərinə şərəf bilən, əlini öpmək üçün növbəyə duran ermənilər xislətlərini nə qədər gizlətsələr də, 21 yaşlı İlham Əliyev bütün bunları çox gözəl görürdü. Heydər Əliyev öz oğluna, ata-bala söhbətləri zamanı ermənilərin mənfur simaları haqqında çox danışmışdı. Gələcək diplomat ermənilərin yüksək çinli vəzifəlilərinin Atasına necə yaltaqlandıqlarını hiss edirdi və bu ona ləzzət edirdi...**

**... Bu ləzzəti 38 il sonra yenidən yaşayacaqdı...**

**... Bu da Cıdır düzü. Təkcə şuşalıların, qarabağlıların yox, bütün azərbaycanlıların sevdiyi, ziyarət etdiyi bir məkan. Bu məkanda Pənah xan, İbrahim xan, Məmməd bəy Cavanşir Batmanqılınc çox at oynatmışdı...**



**... Gün gələcəkdi həmin Cıdır düzündə İlham Əliyev də at oynadacaqdı. Hələ o günə vardı...**

**...Və Heydər Əliyevin göstərişi ilə hər il burda Xarıbülbül festivalı keçiriləcəkdi. Özü də bu festivala təkcə Azərbaycanın yox, həm də SSRİ-də yazıb-yaradan şairlər, yazıçılar, sənət adamları dəvət olunacaqdı.**

**Bu musiqi festivalı bir daha bütün dünyaya sübut edəcəkdi ki, Şuşa və Qarabağ Azərbaycandır!..**

**...Və gün gələcəkdi İlham Əliyev Vaqifin bu möhtəşəm abidəsini düşməndən xilas edib bərpa edəcəkdi, həm Vaqif poeziya günlərini, həm də Cıdır düzündəki Xarıbülbül festivalını yenidən keçirəcəkdi. Hələ o günə vardı. Və gün gələcəkdi İlham Əliyev bunu bütün dünyaya bəyan edəcəkdi!..**

**... Qəribə bir təsadüf. Ulu Öndər Heydər Əliyev Vaqifin məqbərəsini 59 yaşında tikdirmişdi, Prezident İlham Əliyev də 59 yaşında həm Şuşa şəhərini işğaldan azad edəcəkdi, həm də məqbərəni yenidən bərpa etdirəcəkdi. Nə qədər qəribə olsa da, nə qədər təsadüf olsa da, bu bir xoş təsadüfdü...**

**... Biz o günü 28 il gözlədik. Və o gün gəldi. Və o günü bizə Müzəffər Ali Baş Komandan İlham Əliyev yaşatdı.**

**Və o gün gəldi.**

**38 il bundan əvvəl bir gənc diplomat kimi getdiyi şəhərə azərbaycanlıların, eləcə də dünya türklərinin Məkkəsinə dünyanın qəbul elədiyi həm diplomatiyada bir lider kimi, həm də bir sərkərdə kimi, Pənah xan kimi daxil olacaq. Son 200 ildə Azərbaycanın itirdiyi torpaqları bərpa edərək Şah İsmayılın və Ulu Öndər Heydər Əliyevin davamçısı kimi daxil olacaq.**

**Şuşanı əvvəlkindən də gözəl tikəcək, bütün dünyaya tanıdacaq. Və Şuşanı təkcə müsəlmanların deyil, həm də bütün dünyanın ziyarət edə biləcəyi müqəddəs bir məkana çevirəcək.**

**Bu gün Qarabağı, arxalarında kimlərin durmasından asılı olmayaraq, Ermənistan ordusunun işğalından azad edən, Azərbaycanın sərhədlərini bərpa edən cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin 59 yaşı tamam olur. Bu təkcə Onun ad günü deyil, bütün azərbaycanlıların, eləcə də bütün türklərin ad günüdü. Və həm də Şuşanın 270 illiyinə Onun ən böyük hədiyyəsidir.**

**Cənab Prezident 50 illik yubileyini Ağcabədidə - Taxta körpüdə Laçın qaçqınları ilə keçirtdi. Yəni böyük təmtəraqla yox, hansısa bir qaçqın ailəsi ilə. Artıq qaçqınlıq da bitdi.**

**Mən inanıram ki, Prezident İlham Əliyev 60 illik yubileyini qaçqın olmayan şuşalılarla, qarabağlılara, eləcə də bütün azərbaycanlılarla birgə Şuşada keçirəcək! Və Cıdır düzündə xalqımızla bir yerdə qol-qola bir "Şərur yallısı" oynayacaq. Ermənilərə gözdağı vermək üçün yox, onsuz da ermənilərə gözdağını Qarabağı azad etməklə verib, onu sevən və həmişə onunla birlikdə olmaq istəyən Azərbaycan xalqı ilə bir yerdə. Nə cənab Prezident, nə də Azərbaycan xalqı kiməsə gözdağı vermək istəməyib.**

**Möhtərəm Prezident, Ali Baş Komandan, cənab İlham Əliyev! Bu təkcə Sizin ad gününüz deyil, həm də Azərbaycan xalqının ad günüdür.**

**Sizi və Azərbaycan xalqının sevimlisi həyat yoldaşınız, Birinci vitse-prezident Mehriban xanımı və bütün ailənizi, bu ailəyə Azərbaycan xalqı da daxildir, ad gününüz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və daha böyük uğurlar arzulayıram.**

**"Azərbaycan" qəzeti**

# VƏTƏN SİZƏ OĞUL DEDİ!

*__“Qarabağ” ordenli Şəhid Gizir Mirağa Qasımov__*



Cəlilabad rayonu, Moranlı kəndində anadan olub. Dövlət Sərhəd Xidmətinin Çevik Hərbi Dəstəsində hərbi qulluqçu olmuş gizir Qasımov, 27 sentyabrda başlayan Vətən müharibəsinin ilk günündən əks-hücum əməliyyatlarında düşmənə sarsıdıcı zərbələr vurub, düşmənə göz açdırmayıb. Sonda isə qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlib.

Ölümündən sonra Azərbaycan Respublikasının ”Qarabağ” ordeni ilə təltif edilib.

*__Düşmənin canına qorxu salan, əsgərini döyüş meydanından çıxararkən şəhid olan igidimiz__*



30 ilə yaxın həsrətdən sonra hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın silahlı qüvvələrini darmadağın edərək uzun illərdən bəri düşmən tapdağında olan tarixi dədə-baba torpaqlarımızı işğaldan azad etdi.

44 gün davam edən Vətən Müharibəsində Azərbaycanın vətənpərvər oğulları canlarından keçiblər. Onlardan biri də Nəcəfov İlkin Misir oğludur.

Şəhid 1989-cu il, noyabrın 17-də Salyan rayonu Şikarlı kəndində anadan olub. O, 2007-ci ildə orta məktəbi bitirib Heydər Əliyev adina Ali hərbi məktəbə daxil olub. 2011-2012-ci illərdə leytenant kimi zabitləri təkmilləşdirmə kursunu uğurla bitirib və Tərtər rayonunda yerləşən N-saylı hərbi hissədə xidmət göstərib.

İlkin Nəcəfov Aprel döyüşlərində də iştirak edib. Həmin döyüşlər zamanı Ağdamın Süsənli kəndi ətrafında gedən hərbi əməliyyatda iştirak edib. Elə həmin il 26 iyun Silahlı qüvvələrin yaranmasının ildönümü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda, nizam-intizamda əldə etdiyi yüksək nəaliyyətlərə görə Fəxri fərmanla təltif olunub.

Şəhid 2018-cil il 26 iyun Azərbaycan ordusunun 100 illiyi ”Yubiley Medalı” və Azərbaycan Respublikasına Qüsursuz xidmətinə görə 3-cü dərəcəli medalla təltif olunub. 2019-cu ildə ona ”kapitan” rütbəsi verilib.

2020-ci il sentyabr ayının 27-i xidmət etdiyi hərbi hissədən cəbhəyə yollanıb və Füzuli istiqamətində gedən düyüşlərdə qəhrəmancasına iştirak edib.

İlkinin ailəsi onun cəbhədə olmasından xəbərsiz olub. Anası ilə telefonla danışan zaman təlim keçdiyini bildirib.

Döyüşlər zamanı düşmənin bir çox hərbi qulluqçusunu, o cümlədən, hərbi texnikasını məhv edib.

O, ən son əmisi oğlu ilə telefonla danışıb və bildirib ki, narahat olmasınlar, hər şey yaxşı olacaq.

Oktyabrın 14-də Hadrut istiqamətində gedən döyüşlərdə yaralanmış əsgərini döyüş meydanından çıxararkən qərəmancasına şəhid olub.

Şəhidin bir oğul övladı var.

*__Suqovuşanda şəhid olan gizirimiz__*



Azərbaycan Ordusunun giziri Məhərrəmov Ariz Fərzulla oğlu 10 dekabr 1982-ci ildə Saatlı rayonunun Qara Nuru kəndində anadan olub.

Ariz Məhərrəmov 29 sentyabrda Suqovuşan kəndi uğrunda döyüşlərdə şəhid olub.

*__Silahını qucaqlayıb və həmin yerdə də şəhid olub__*

44 günlük Vətən müharibəsində torpaqlarımızın hər qarışı uğrunda say-seçmə oğullar canlarını qurban verdilər. Onlardan biri də 28 yaşlı Şəhid Elçin Hüseynovdur.

Kəşfiyyatçıların dediyinə görə, Elçin şəhid olanda iki dəfə güllə yarası alıb. Birinci güllə başının arxasından dəyib, komandiri elə bilib ki, Elçin şəhid olub. Lakin bir müddətdən sonra onun sağ olduğunu görüblər. Uzandığı yerdən qalxıb, komandiri Elman Əzizli rabitə ilə geri qayıtması əmrini verib. Amma Elçin dayanmayıb, komandirə ”gözləyin” deyib. Düşmənlə üzbəüz dayanıb, ikinci güllə dəyməmişdən özündə güc tapıb erməni nişan ala bilib və vurub. Sonra ikinci güllə başından dəyib. Elçin uzandığı yerdə bir neçə saniyəyə ”bronjilet”i çıxarıb, içindəki bayrağı şalvarının cibinə qoyub, silahını qucaqlayıb və həmin yerdə də şəhid olub. Şəhid qəhrəman Elçin Hüseynov oktyabrın 17-də Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub. Silahdaşları onun sonuncu arzusunu yerinə yetiriblər. Şuşanı azad etmək, Şuşanı görmək istəyən şəhidin məzarına Şuşa torpağı səpilib.



*__Şəhid kapitan Şikarov Nəcəf__*



Azərbaycan Ordusunun kapitanı Şikarov Nəcəf Şikar oğlu 24 yanvar 1985-ci ildə Şamaxıda anadan olub.

Nəcəf Şikarov 9 noyabrda şəhid olub. III Fəxri Xiyabanda dəfn edilib.

## *15 il əvvəlki qəza: AN-140 sərnişin təyyarəsi*

**Bakıdan Qazaxıstanın Aktau şəhərinə uçan AN-140 tipli sərnişin təyyarəsi qəzaya uğramasından on beş il ötür.**

**Adalet.az saytı xəər verir ki, 15 il əvvəl -2005-ci il dekabrın 23-də Bakı-Aktau (Qazaxıstan) reysini yerinə yetirən AN-140 sərnişin təyyarəsi qəzaya uğrayıb. Təyyarə Heydər Əliyev adına beynəlxalq hava limanında havaya qalxdıqdan bir neçə dəqiqə sonra qəzaya uğrayaraq Nardaran qəsəbəsi yaxınlığında, Xəzər sahilində yerə düşüb.**



**Təyyarədə olan 18 sərnişin və 5 heyət üzvü həlak olub. Onların 15-i Azərbaycan, 8-i xarici ölkə vətəndaşları olub. Azərbaycan tarixində dekabr ayında baş verən təyyarə qəzaları Bildiyiniz kimi 1988-ci ildə zəlzələdən zərərçəkmiş ermənilərə yardım göstərmək məqsədilə Azərbaycandan göndərilmiş ”İL-76” təyyarəsi Ermənistanın Spitak rayonu yaxınlığında ”Stinqer” raketi ilə vurulub. Sovet dönəmində erməni qüvvələrinin israrı ilə həmin terror hadisəsi tarixə qəza kimi düşdü. Hadisə nəticəsində təyyarədə olan 77 azərbaycanlıdan cəmi 1 nəfər sağ qalıb. Həmin gün erməni terrorçuları Türkiyəyə məxsus olduğunu düşünərək Yuqoslaviyanın humanitar yük gətirən ”An-12” təyyarəsini də vurub.**

**Qeyd edək ki, Azərbaycanın müstəqillik tarixində baş verən ən böyük aviasiya qəzalarından biridə məhz dekabr ayına düşür. Belə ki, həmin qəza 1995-ci il dekabrın 5-də qeydə alınıb. Həmin gün Naxçıvan-Bakı reysi ilə hərəkət edən Tu-134 sərnişin təyyarəsi Naxçıvan aeroportundan havaya qalxdıqdan bir neçə dəqiqə sonra açıq sahəyə düşərək tamamilə yanıb. Qəzada 4 heyət üzvü və 48 sərnişin həlak olub. Sonradan Rusiya və Azərbaycan ekspertlərindən ibarət beynəlxalq komissiya qəzanın TU-134-ün mühərriklərindən birinin nasaz olması və pilotların qəza enişi zamanı səhvə yol verməsi qənaətinə gəliblər.**

**Əntiqə Rəşid**

## *Dövlət Komitəsi: Məcburi köçkünlərin müəyyən olunmuş limit üzrə borcları tam ödənilir*



**"Azəriqaz" İstehsalat Birliyinin yaydığı məlumata görə, kompakt şəraitdə müvəqqəti məskunlaşmış, fərdi qaydada təbii qazla təmin olunmayan obyektlərdə yaşayan 8 772 məcburi köçkün ailəsi üzrə dövlətin ayırdığı limitdən (hər bir ailə üzvünə aylıq 35 kubmetr) artıq istifadə olunmuş təbii qazın dəyərinin ödənilməməsi nəticəsində 24.11.2020-ci il tarixinə 9 560 769 manat məbləğində borc yaranıb.**

Bununla əlaqədar olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi bildirib ki, "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" 23 yanvar 2017-ci il tarixli 1206 nömrəli Fərmanına əsasən, kompakt şəraitdə müvəqqəti məskunlaşmış, fərdi qaydada təbii qazla təmin olunmayan obyektlərdə yaşayan 7189 məcburi köçkün ailəsinin müəyyən olunmuş limit üzrə istehlak etdiyi təbii qazın dəyəri Komitə tərəfindən hər ay vaxtında və tam şəkildə "Azəriqaz" İB-nə ödənilir. Yuxarıda göstərilən borc məbləği 2010-cu il yanvarın 1-dən 24 noyabr 2020-ci ilə qədər dövrdə məcburi köçkünlərin təbii qazdan müəyyənləşdirilmiş limitdən artıq istehlak etməsi nəticəsində yaranıb. Məcburi köçkünlərin müəyyən olunmuş limitdən artıq istehlak etdiyi təbii qazın ödənilməsi üçün Dövlət Komitəsinə büdcə vəsaitinin ayrılması nəzərdə tutulmayıb. Məcburi köçkün abonentlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə müasir tələblərə cavab verən yeni salınmış çoxmərtəbəli yaşayış komplekslərinin qazanxanalarında istehlak olunan təbii qazın dəyərinin ödənilməməsi ilə bağlı qeyd etmək istərdik ki, mövcud qanunvericilik əsasında, məcburi köçkünlərin istilik və isti su təchizatına görə hesablanan vəsait 2017-ci ilin sonuna qədər olan dövr üçün müəyyən edilmiş normalar həddində dövlət hesabına mərkəzləşmiş qaydada tam ödənilib. Hazırda 2018-ci ildən yaranmış borcların həmin qaydada ödənilməsi imkanları müzakirə edilir.

**Ümumiyyətlə, "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" Fərmanına əsasən, hər bir məcburi köçkünə və onlara bərabər tutulan şəxsə yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə 2017-ci il 1 yanvar tarixindən vahid aylıq müavinət ödənilir.**

**Sübhan**

*__Səxavət Məmməd__*

## Həqiqətən bezmişəm, iyrənirəm



*Baxıram, işğaldan azad edilmiş yerlərə jurnalistlərin tur səfərlərini təşkil edirlər. Bir neçə dəfə işğaldan azad edilmiş yerlərə getmək üçün müraciət etdim. Saya salan olmadı. Bir dəfə gizlin şəkildə Ağdama gedib, reportajlar yazdım. Sonra yazmağıma peşman oldum. Kimsə demədi niyə yazmısan, sadəcə içimdə peşmançılıq yarandı. Niyə gizli getməliyəm? Oğruyam, banditəm? Müharibə başlamazdan əvvəl cəbhədə ol, müharibə bitəndən sonra da ərazidən çıxma, onda ol yaxşı oğlan, obyektiv yazan, iş səfasına gələndə səni yaxın qoymasınlar.*

*Müharibə vaxtı bilirsiniz nə qədər rəsmi şəxslər zəng edib, gördüyüm işlərə görə təşəkkür edib, hətta görüşmək istədiyini deyib? Nə oldu? Müharibə vaxtı fəaliyyətin tərifə layiq olsun, bitəndən sonra sən olmasan da, olar? Müharibə vaxtı da ayrıseçkilik var idi. Xarici jurnalistlərə münasibət başqa, yerlilərə başqa. Mətbuatla yaxından-uzaqdan əlaqəsi olmayanlara dəbilqə, zirehli gödəkcə verildi, mənə çatanda yoxa çıxdı. Səbəb?*

*Müharibə vaxtı qarşılıqsız iş görmüşəm, nə kimdənsə pul-para istəmişəm, heç ezam pulu belə almamışam. Dostları sağ olsun, konturmu əskik etməyiblər.*

*Kimsə yalnış anlamasın, elə bilməsin jurnalistlərin işğaldan azad edilmiş yerlərə aparılmasını qısqanclıqla qarşılayıram, paxıllıq edirəm. Təkrar edirəm, bir çoxunun indi getdiyi yerə öz xəttimlə gedib gəlmişəm. Məsələ ondadır ki, iş görmək üçün gizlənəcək adam deyiləm. Təkrarr edirəm, sözlərim jurnalistlərə yox, təkcə məni yox, iş görmək istəyən jurnalistləri bayıra atan sistemədir.*

*Çox şükür, adım nə kiminsə adamına çıxmayıb, nə də kiminsə hesabına adam olmuşam. Bu günə qədər ancaq doğruları yazmağa çalışmışam, bundan sonra da davam. Ancaq həqiqətən bezmişəm, iyrənirəm.*

# ŞUŞA FATEHİ YAŞAR HÜSEYNOV

**30 ilə yaxın həsrətdən sonra Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək torpaqlarımızı işğaldan, düşmən tapdağından azad etdi. Sentyabrın 27-dən başlanmış və 44 gün davam edən Vətən Müharibəsində Azərbaycanın vətənpərvər oğulları Ermənistanın silahlı qüvvələrini darmadağın edərək uzun illərdən bəri düşmən tapdağında olan tarixi dədə-baba torpaqlarımıza bizi qovuşdurdu. Tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi.**





Artıq bütün işğal altında olan torpaqlarımız azad olunub, Qarabağ Azərbaycandır! Hər bir müharibədə olduğu kimi bizim də haqq mübarizəmizdə şəhidlərimiz, yaralılarımız, itkin düşənlərimiz oldu. Məhz, onların sayəsində 30 ildir xalqımızın həsrətində olduğu torpaqlara, hər bir şəhərə, qəsəbəyə, kəndə qayıtdıq, Qarabağda artıq Azərbaycan bayrağı dalğalanır. Azərbaycan xalqı torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş şəhidlərimizin xatirəsini necə uca tutduğunu, onlarla fəxr etdiyini nümayiş etdirdi. Şəhidlərimiz də, yaralılarımız da bizim azadlıq, müstəqillik, yenilməzlik, qəhrəmanlıq simvolumuza çevrildi.

Bu yazımızın qəhrəmanı Yaşar Hüseynov Şuşaya Azərbaycanın üç rəngli bayrağını ilk sancan igidimiz, qəhrəmanımızdır. Ağdam rayonunun Abdal kəndində doğulub böyüyən Yaşar uşaqlıq həyatı yaşamayıb. Elə 5-ci sinifdə oxuyanda, 1992-ci ildə artıq öz elindən, obasından məcburi köçkün düşüb.

Şuşanın ətəyində yerləşən Abdal kəndi 1-ci Qarabağ müharibəsinin elə ilk günlərindən ətraf erməni kəndləri tərəfindən həmişə təzyiqlərə məruz qaldığından ailələri Ağdamın Qərvənd kəndinin yaxınlığında yerləşən Mirəşelli kəndinə üz tutublar. Bir müddət burda yaşayıblar. Lakin sonradan bu kəndlərdə işğal edildiyindən Bərdə şəhərində məskunlaşıblar.

Yaşar elə məktəb illərindən hərbiçi olacağını bildirirmiş. Bir tərəfdən doğma şəhəri-Ağdamın işğal olunması, digər tərəfdən qardaşı Füzulinin 1993-cü ildə 1-ci Qarabağ müharibəsi döyüşlərində şəhid olması onun qərarını qətiləşdirmişdi. Yaşarın şəhid qardaşından başqa daha iki qardaşı Sadiq və Fərmanda 1-ci Qarabağ müharibəsinin iştirakçıları olublar. Veterandırlar. Qəhrəmanlarımızın bacısı Sadəgül Hüseynovanın bildirdiyinə görə Yaşar artıq 21 ildir ki, hərbidədir. O 2000-ci ildə hərbi xidmətə gedib. 2014-2016-cı illərdə baş verən döyüşlərdə xüsusi təyinatlı kimi iştirak edib. 2014-cü ilin avqust əməliyyatında 6 erməni əsgərini məhv edib. Bu zaman qolundan yaralanıb. Sağaldıqdan sonra yenə xidmətə qayıtmışdır. 2 dəfə xüsusi xidmətlərinə görə medalla təltif olunub. Apel döyüşlərində də iştirak edib, 3 cü dərəcəli qüsursuz xidmətlərinə görə mükafatına layiq görülüb.

Yaşarın qıhrəmanlıqlarından danışan Sadəgül xanım bildirdi ki, qardaşı Vətən Müharibəsində də xidməti zamanı ayağından yaralanıb. 20 gün hərbi qospitalda müalicədən sonra yenidən döyüşə qayıdıb.

Yaşarın yaralanacağı atasına agah olubmuş. Övladı şəhid olduqdan sonra yaşadığı iztirablardan iki gözündən əlil olan və gün işığına həsrət qalan ata Vətən müharibəsi başlayandan təxminən 10 gün sonra qızına bildirir ki, Yaşar qılçından yaralanacaq. Nəzir demişəm ki. Düşmən əlinə düşməsin. Sadəgül xanım bildirir ki, həqiqətəndə 2-3 gün keçmədi ki, oktyabrın 10-u idi, Yaşar Cəbrayılda yaralandı. Ala yarımçıq sağalıb cəbhəyə qayıtmışdı. Şuşa xəbərini verəndə soruşdum ki, bəs yaran necədir? Dedi ki, heç yadıma düşmür.

Əzizləri cəbhədə olan bir ailənin qələbə xəbərinə reaksiyasını isə müsahibim sözlə ifadə edə bilməyəcəyini dedi: ”Ali Baş Komandan düşmənlərimizin kaputilyasiya bəyanatına imza atdığını - Qələbə xəbərini verdikdən sonra sevincimizin həddi-hüdudu yox idi. 28 ildən sonra yurdumuza dönəcəydik. Amma bu sevinclə bərabər bir həyacanımızda var idi ki, görəsən Yaşar haradadır, necədir. O 11 gün idi ki, bizimlə əlaqə saxlamırdı. Yaralanıb döyüşə qayıdanda bizə demişdi ki, zəng vurmasam narahat olmayın. Amma biz nigaran idik.

**Ali baş komandanın son çıxışından sonra səhər saat 9-a 20 dəq işləmiş mənə zəng vurdu. Dedi ki, məndən narahat olmayın lap yaxşıyam. Şuşanı ermənilərdən azad eləmişik. İlk bayrağı da mən sancmışam. Azan vermişəm. Bundan sonra Azərbaycanın himni səsləndirilib. Qardaşımın sağ-salamat olması sevincimizi tam etdi. Bildirim ki, qardaşımın bu igidliyi Ali Baş Komandan tərəfindən ”Vətən müharibəsi qəhrəmanı” adı ilə mükafatlandırılmışdır. Ən əsası odur ki, Yaşar qardaşının timsalında bütün şəhidlərimizin qisasını öz silahdaşları ilə aldı. Qarabağ Azərbaycandır!”**

**Nicat Novruzoğlu**

## *Trampdan yardım paketi jesti: “Bu, sadəcə rüsvayçılıqdır!”*



**ABŞ-ın pandemiyadan böyük zərər görən iqtisadiyyatını canlandırmaq üçün 892 milyard dollarlıq yardım paketi parlamentdən keçsə də, Donald Trampda ilişib qaldı. Tramp ”Twitter”dəki paylaşımında belə yazdı:**

”Mənə göndərməyi düşündükləri təklif gözlənilənlərdən çox fərqlidir. Bu, sadəcə, rüsvayçılıqdır”.

Tramp mövcud təklif içərisində yer alan 600 dollarlı fərdi yardımların tək adam üçün 2 min, cütlüklər üçün 4 min dollar olmasını tələb etdi.

ABŞ hököməti hal-hazırda müvəqqəti büdcə üzərində işləyir və 1,4 trilyon dollarlıq büdcənin təsdiqlənməsi gözlənilir. 28 dekabr tarixinə qədər yeni bir təklif hazırlanmasa və ya Trampın vetosuna baxmayaraq təklifi qəbul etmək üçün bir yol tapılmasa, hökumət buraxılmalı olacaq.

## *Almaniyada gündə 60 cəsəd yandırılır*

**Koronavirusun dünyanı cənginə aldığı bir dövrdə Almaniyada elm insanları virusun bu ana qədər 17 fərqli mutasiyaya uğramış halının olduğunu açıqladı. Vaksinlərin mutasiyaya qarşı təsirli olduğu düşünülsə də, ən yaxşı tədbirin karantinə alınmaq olduğu deyilir.**



Almaniyada dünən 962 nəfər koronavirusdan öldü. Cəsədlər krematoriumlarda yandırılmağa başlandı.

Almaniyada koronavirusdan ölənlərin orta yaş həddi 80-dən yuxarıdır. Ölənlər xüsusi tabutlara qoyulur, tabutlar sellofana bükülür, sonra Meissen şəhərindəki krematoriumlarda yandırılır. Dünən 700 insan cəsədi bu üsulla yandırılıb. Şirkətin sahibi Jörg Schaldach deyib ki, gündə 3 növbə işləməklə 60 cəsəd yandıra bilirik.

Qeyd edək ki, Almaniyada krematoriumlar xüsusilə Nazi kamplarında məşhur olmuşdu. Roma dövründən bəri istifadə olunan krematoriumlar buralarda yenidən inşa edilmiş və qazla boğulan, ya da müxtəlif formalarda öldürülər yəhudilərin cəsədləri burada yandırılmışdı.

## *Putindən sələflərinə böyük jest*



**Rusiyanın 68 yaşlı prezidenti Vladimir Putin mübahisələrə yol açan qanun qəbul edib. Dünən imzaladığı qanunda eks-prezidentlərin toxunulmazlığının daha da genişləndirilməsi və Kremldəki iş müddətləri bitəndən sonra ömür boyu parlamentdə senator olmaları nəzərdə tutulur.**

Bu qərarla əks-prezidentlər polislər tərəfindən saxlanılmayacaq, axtarılmayacaq, sorğulanmayacaq və tutulmayacaq.

## *İsrail və Yunanıstan Türkiyə ilə daha da yaxınlaşır*



**Türkiyə ilə Şərqi Ağdənizdə yaşanan gərginlikdən sonra yaxınlaşan İsrail və Yunanıstan müdafiə əməkdaşlığını da inkişaf etdirir. İsrailli konsorsium strateji dəyərə sahib olan hərbi texnika istehsalçısı ”ELVO”nun ən böyük səhmdarı oldu.**

İsrailin ”SK Group” və ”Plasan Sasa” adlı şirkətlərdən ibarət konsorsiumun Yunanıstan Texnika Sənayesi (ELVO) adlı şirkətin hissələrinin çoxusunu aldığı açıqlandı.

İlk hədəf İsrailin ”Guarder və SandCat markalı hərbi zirehli maşınlarının AB və NATO üzvü olan Yunanıstanda istehsal edilməyə başlanmasıdır. Daha uzun müddətdə isə şirkətin Selanikdəki fabrikində yüngün silahların istehsal olunması planlaşdırılır.

**Eminquey**



*Vaqif Aslan*
*AYB Şəki bölməsinin sədri*

## *Ali Baş Komandanım!*

Bu mübarək yerişin,
bu duruşun mübarək!
Bu ləngərin, səngərin,
bu vuruşun mübarək!
Ali Baş Komandanım!

Şəhid cənazəsindən
könlü açılanları
Ağzından zəhər damıb,
əzvay saçılanları
Əlsizi, ayaqsızı
gəmirib yeyənləri
Qarnı doyandan sonra
mələyəm deyənləri
Öz qınına qoy indi!
Gözünü qan örtənin
gözlərini oy, indi!

Xankəndini, Şuşanı
göynəyən yarana bas!
Qalx, İsa bulağının
nəğməsinə qulaq as!

Yollarını gözləyən
ellərini salamla!
Çəməninə sığal çək,
çöllərini salamla!
Çaylarına qoşul, ax,
göllərini salamla!
Ali Baş Komandanım!

Bu işıqlı dünyaya
illlər boyu kor baxan
İnsanlığa xor baxan
iblisləri vur indi!
Xəbisləri, pisləri,
ən pisləri vur indi!

Yollarını gözləyən
dağın-daşın eşqinə!
Bu qaçılmaz, müqəddəs
haqq savaşın eşqinə!
Mayası turşları vur,
bətni şoranları vur!
İİnsan sümüklərindən
ilik soranları vur!
Ali Baş Komandanım!

Əmrinə müntəzirdir
Azərbaycan ordusu
Halal olsun deyirəm
sənə bu torpaq, bu su!
Ananın südü kimi,
atanın çörəyitək!
Qarabağ üzərində
dalğalanın bayrağın
Ana Azərbaycanın
Ata Azərbaycanın
döyünən ürəyitək!
Ali Baş Komandanım!
Zəfərin də mübarək!
Qələbən də mübarək!

Mehman Cavadoğlu

# Müxalifət son və qəti döyüşə başlayıb



**Ağır məğlubiyyətdən sonra Ermənistan cəmiyyətinin yuvarlandığı böhran növbəti mərhələyə qədəm qoyub. Dünəndən ölkədə ümumi tətil elan edilib, paytaxt Yerevanın Teatr meydanında çadırlar qurulub, müddətsiz oturaq aksiyasına start verilib. Aksiyanın nə qədər çəkəcəyi dəqiq bilinməsə də, mücərrəd müddəti var : " Paşinyanın istefa verənə qədər".**

Paşinyan isə hələ ki istefa verənə oxşamır və bunu təkcə məğlubiyyət sonrakı davranışlarıyla nümayiş etdirməyib, həm də açıq mətnlə dəfələrlə bəyan eləyib. İndiki halda onu yalnız zorakı üsullarla istefaya göndərmək mümkündür ki, birləşmiş müxalifət də bu yöndə son və qəti döyüşə başlayıb.

10 noyabrda imzalanan üçtərəfli sazişdən sonra baş naziri əvvəlcə parlament vasitəsilə vəzifədən atmaq istədilər. Düzdür, Paşinyanın partiyasının parlamentdə mütləq say çoxluğuna malik olması bu məsələni çətinləşdirirdi. Amma Ermənistan da qarışıq bir çox ölkələrin, elə Paşinyanın özünün hakiniyyətə gəlmək taktikası göstərir ki, deputatlar ciddi siyasi böhran şəraitində, məcburiyyət qarşısında qərar qəbul eləmək məcburiyyəti qarşısında qalanda şəxsi istəkləri və yaxud partiya mənsubiyyəti prinsipiylə yox, daha çox küçə və meydanların təzyiqiylə düyməyə basırlar.

Bu üsul Yerevanda keçmədi, bir neçə deputatın dönüklüyü yetərsiz oldu və hakim partiya parlament böhranını ötüşdürə bildi. Hətta Paşinyan bir neçə günlük bunker həyatından qurtulduqdan, kabinetində yağmalanmış əşyalarının, xüsusilə bahalı fransız odekolonunun xiffətindən ayılıb özünə gələndən sonra həmin parlamentə ayaq açmağa, nitq söyləməyə, hətta ölkəni böhrandan çıxarmaq üçün cəmiyyətə qısa müddətli proqram təqdim eləməyə də özündə güc tapdı.

Sonra etirazların ikinci mərhələsi, aramsız küçə yürüşləri və mitinqlər başladı. Baş nazir bu mərhələdən də addamağı bacardı, çünki hüquq-mühafizə orqanlarına, xüsusilə orduya və polisə nəzarəti öz əlində saxlaya bilmişdi. Arada baş qərargah rəsi ordunun lazımi anda lazımi yerdə olmasıyla bağlı yuxarıdan gələn göstərişə müqavimət göstərməyə çalışsa da, müdafiə nazirinin "məsləhət"indən sonra o da öz fikrindən vaz keçmişdi.

İndi müxalifət hakimiyyəti devirməyin üçüncü, son və qəti mərhələsinə qədəm qoyub. Uzunmüddətli tətil elan olunması, oturaq aksiyalara başlanılması göstərir ki, geri durmaq fikrində deyil, başladığı işi sona çatdırmaqda qərarlıdı. Bundan sonra, ola bilsin ki, siyasi mübarizə arenası qanlı savaş meydanına çevriləcək və ölkə 2008-ci ilin 1 mart faciəsini yenidən yaşamalı olacaq. Bu davanın 12 il əvvəldəki kimi hakimiyyətin, yoxsa müxalifətin udacağı isə hələlik heç kimə məlum deyil. Əgər Yerevan polis şöbəsi xüsusi batolyonunun komandir müavini Xaçik Tovmasyanın baş verənlərə etiraz əlaməti olaraq istefa verməsi zəncirvari reaksiyaya çevrilsə, onda Paşinyanın aqibətinin həll olunduğuna şübhə yeri qalmayacaq. Çünki onun indiyə kimi hakimiyyətdə duruş gətirməsinin ən başlıca səbəblərindən biri polisin öz baş nazirliyinə sadiqliyidir.

Ancaq hamısı deyil.

Sorosçu Paşinyan Qərbin layihəsidi və üzləşdiyi ağır məğlubiyyətdən sonra öz əsas himayədarları hələ də ona olan ümidlərini itirməyiblər. Üstəlik, bu məğlubiyyət onu bir vaxtlar təpik atdığı Rusiya ilə də yaxınlaşmağa, Putinin əl buyruqçusuna çevrilməyə məcbur elədi. Putin hər nədirsə böyük praqmatikdi, siyasi maraqları naminə bu cür incikliklərin üstündən keçməyi bacarır. Üstəlik, indiki şəraitdə hakimiyyətə kim gəlsə, Paşinyan qədər Moskvaya yaxın olmayacaq. Qəsdən Rusiyapərəst kim gəlsə demirik, çünki hazırda Yerevanın siyasi səhnəsində cövlan eləyən fiqurların hamısı Kremlin sadiq vassallarıdı.

Amma Paşinyanın avantajı tək bu deyil. İnsafən, onun Ermənistandakı reytinqi hələ də hardasa 60 faiz civarındadı. Bu böyük rəqəmdi, hətta müharibədəki biabırçı məğlubiyyət olmasaydı belə, iki-üç illik hakimiyyətdən sonra bu cür reytinqi qoruyub saxlamağı bacarmaq heç də asan iş deyil.

Müxalifətin iki ay yarımdı ki, bitmək bilməyən bu çabalarının uğursuzluğu daha çox onunla bağlıdı ki, indi ölkədə adamların inandığı bir lider, böhranın qarşısını alacaq konkret bir siyasətçi və ya siyasi təşkilat yoxdu. 17 siyasi partiyanın vahid namizədi kimi təzədən dirilib tribunalarda boy göstərən Vazgen Manukyan isə çarəsizlik sindromunun məhsuludu. İstənilən cəmiyyət siyasi infantillik dövrünü yaşayanda vahid namizədə möhtac olur. Bu gün Paşinyanı yıxmaq istəyən qüvvələrin hamısı mariginal qruplardı, nə indi, nə də uzun illər bundan sonra da onların heç biri təkbaşına ölkəni bu ağır kollapsdan qurtarmağa qadir deyil, məqsəd yalnız öz şəxsi və ya siyasi incikliklərinin hayıfını çıxmaqdı.

Üçtərəfli saziş imzalanandan bir neçə gün sonra Paşinyan rəqiblərinə müraciət edərək ölkənin düşdüyü durumda onun atdığı addımlardan fərqli nə edə biləcəklərini soruşanda daşdan səs çıxdı, onlardan yox. Nə Manukyan, nə də onu taclandırmaq istəyən qüvvələr nə Rusiyadan, nə də Dağlıq Qarabağa artıq "durbin"lə baxan Qərbdən indiki baş nazirdən daha çox nəsə qoparda bilməyəcəklər. Daxili potensialdan isə danışmağa dəyməz. Ordunun 80 faizi məhv edilib, iqtisadiyyat çöküb, cəmiyyət demorolizə olub, siyasətçilər marginallaşıb, diaspor başını itirib, ziyalılar yeni cazibədar miflər quraşdırmaq axtarışına çıxıb, ən başlıcasısa, xalq mənən sarsılıb, on illər boyu içində qovrulub qalacağı ruh düşgünlüyünə qapılıb. Belə bir acınacaqlı durumda zorən hakimiyyət başına itələnən Vazgen Manukyanın məşum təcrübəsi də heç nəyə yaramayacaq. Neyləyəcək? Yenidən ötən əsrin 80-ci illərinin sonunda yaratdığı məşum "Qarabağ komitəsi"ni dirçəldəcəklər? Yenidən sıfırdan başlayacaqlar? Axı, 30 ildir ölkəni idarə eləyən və hazırkı acınacaqlı duruma salan siyasi partiyaların hamısı bir vaxtlar məhz həmin komitənin şinelindən çıxanlardı.?!

Bir sözlə, dairə daralıb və qapanıb, artıq bu ölkəni nə "məxməri inqilab", nə hərbi çevriliş, nə də hər hansı silahlı üsyanla həmin dar dairədən çıxartmaq mümkündü. İstənilən siyasi təbəddülat yanan ocağın üstünə tökülən benzin effekti verəcək, ölkəni daha çıxılmaz dalana dirəyəcək. Xilas yolu bu deyil. Ermənistan cəmiyyəti öz siyasətçilərini yox, əsrlər boyu onu bu cür faciələrlə üzləşdirən streotipləri dəyişməyə, xam xəyallardan birdəfəlik əl çəkməyə, daim kimlərəsə sığınmaq, kimlərdənsə imdad diləməklə xəstə xəyallarını gerçəkləşdirmək arzusundan birdəfəlik vaz keçməli, bu günündən, tarixindən dərs çıxarmalı, Eçmiədzinin min illərdi bitmək bilməyən xəstə ideologiyasından əl çəkməlidi. Erməni xalqının ən böyük problemi siyasətçi, hərbçi, ziyalı problemi deyil, qonşular problemi heç deyil, hətta təmsil elədiyi dinin içində də yalquzaq kimi tək-tənha dolanan kilsə problemidi.

Bu günlərdə sosial şəbəkələrdə bir erməni əsgər anasının tük ürpədən videosu yayılmışdı. Oğlunun nə ölüsünü, nə dirisini tapa bilməyən ana öz ölkəsinə, onun müxalifətinə də, iqtidarına da nifrinlər yağdırır, kömək üçün Azərbaycana, onun prezidentinə müraciət eləyəcəyini deyir və inamla bildirirdi ki, o mənim səsimi eşitsə, kömək edəcək, dərdimə əlac qılacaq. Bu tək bir ananın səsi deyil, bu gün erməni xalqının arasında belə düşünənlər çoxdu, sadəcə, gözünü qan örtmüş "başbilənlərdən" fərqli olaraq çoxları düşündüklərini dilə gətirməyə qorxur.

Yol budu, barışıq və qonşularla dinc yanaşı yaşamaq yolu.

**İndi sıravi ermənilərin ürəyindən xəbər verən bu yolu asi düşüb düşmən gözündə gördükləri qonşularının özləri onlara təklif edir. Bakıdakı möhtəşəm Qələbə paradında Türkiyənin Cümhurbaşqanı R.T Ərdoğan da, Azərbaycan Prezidenti İ. Əliyev də erməni xalqına sülh mesajları verdilər, barışıq əli uzatdılar. Qaliblərin məğlublara əl uzatmağı nadir hadisədi, böyük alicənablıqdı. İndi bu mesajları qiymətləndirmək qarşı tərəfdən asılıdı. Ya daşı ətəklərindən atıb düşmənçiliyə və kin-kidurətə birdəfəlik son qoymalı, ya da növbəti ağır məğlubiyyətlərə hazır olmalıdırlar. Üçüncü yol yoxdu, hakimiyyət çalxalanmaları nəticəsində kimin Ermənistanın başına keçəcəyindən asılı olmayaraq, qisas ritorikası daha ağır nəticələrə gətirib çıxardacaq. Heç şübhələri olmasın.**

# MOTOSİKLETLƏR

## Onlar ölüm saçır

**Bakı şəhərində bu gün çoxlu sayda nəqliyyat vasitələri var. Heç kimə sirr deyil ki, bu gün Bakıda avtomobillərin sayı 70-ci illərlə müqayisədə dəfələrlə çoxdur. Yəni bu gün mütəxəssislərin səsləndirdiyi fikrə görə, Bakıda 1 milyon 200 mindən çox nəqliyyat vasitəsi var. Təbii ki, bu nəqliyyat vasitələrinin sayının çoxluğu istər-istəməz hərəkətin təhlükəsizliyinə bu və ya digər dərəcə də təsir göstərir. Yəni şəhərdə nəqliyyat vasitələrinin sayı nə qədər çox olarsa, baş verə biləcək qəza ehtimalları da bir o qədər artır. Təbii ki, bütün bunların qarşısını almaq üçün Baş Dövlət Yol Polisi İdarəsi, eləcə də Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi qabaqlayıcı, proflaktik tədbirlər həyata keçirir. Bu da ondan ibarətdir ki, hərəkət iştirakçıları, sürücülər diqqətli olsunlar, yol hərəkəti qaydalarına əməl etsinlər lazım oldu-olmadı tez-tez qayda pozuntusuna yol verməsinlər.**

Əlbəttə, hərəkətin təhlükəsizliyi hər bir iştirakçıdan yüksək məsuliyyət və ciddi münasibət tələb edir. Bakıda avtomobillərlə yanaşı, motosikletlərin də sayı son vaxtlar xeyli çoxalıb. Bu da təbiidir. Çünki bu gün sərt karantin rejimi ilə əlaqədar olaraq yeməkxana, restoran xidmətləri onlayn vasitəsilə həyata keçirlir və həmin motosikletlərdən qidaların çatdırılması məqsədilə istifadə olunur. Buna da normal baxmaq lazımdır. Amma normal olmayan odur ki, bu gün Bakı şəhərində motosikletlər və onları idarə edən sürücülər çox təhlükəli anlar yaradırlar. Ən çox da bu cür sürücülər şəhərin daha çox sıx nəqliyyat vasitəsi olan yerində tez-tez manevrlər edir, sağa-sola keçir və digər avtomobillərin hərəkəti üçün təhlükə yaradırlar.



### *Hətta dəfələrlə onun şahidi olmuşuq ki,*

***həmin motosikletləri idarə edən sürücülər nəinki yolun hərəkət hissəsində, hətta piyadaların hərəkət etdiyi yerlərdə səkilərə çıxır və orada piyadaların hərəkəti üçün də təhlükə törədirlər.***

Təsadüfi deyil ki, son vaxtlar Bakı şəhərində bu cür motosiklet sürücülərinin məsuliyyətsizliyi üzündən neçə-neçə ölümlə nəticələnən qəzalar baş verib.

### *Bəs buna səbəb nədir?*

Nə üçün motosikletlərin idarə olunması zamanı bu cür qəzalar baş verir? Bayaq dedik axı, onlar ilk növbədə qaydalara əməl eləmirlər. Hər hansı qida məhsulunu ünvana çatdırmaq üçün qısa zaman kəsiyində manevrlər edir, hava şəraitinin mürəkkəbliyini nəzərə almır, ilan kimi nəqliyyat vasitələrinin arasından sivişərək məqsədə doğru irəliləyir. Bu da bir çox halda bayaq dediyimiz kimi, ağır qəzanın baş verməsi ilə nəticələnir.



Təbii ki, bu nöqsanlar həmin motosiklet sürücülərinin üzərinə böyük məsuliyyət qoyur. Bakı şəhərində son vaxtlar motosiklet sürücülərinin sayının artması və eyni zamanda digər xidmət sahələri üçün yardımçı köməklik göstərən motosiklet sürücüləri çox çətin anlar yaşayır və yaşadırlar. Əlbəttə, bu kimi hadisələrin baş verməsi bayaq dedik, insan ölümünə gətirib çıxarır. Bunun isə çıxış yolları mövcuddur. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin Hərəkətin Təhlükəsizliyinin Təbliği və İctimai Qurumlarla Əlaqələr bölməsinin inspektoru Toğrul Nəsirli bu məsələ ilə əlaqədar bizə bildirdi ki, Bakıda motosikletlərin hərəkətləri bir qayda olaraq yol polisinin nəzarətindədir. Düzdür, onlar tez-tez qayda pozuntusuna yol verirlər. Hətta dəbilqədən istifadə etməyən motosiklet sürücüləri də var. Bu kimi hadisələrin qarşısını almaq üçün bizim əməkdaşlar onlarla qabaqlayıcı, profilaktik tədbirlər aparır, söhbətlər edir, nəqliyyat vasitəsini idarə edərkən daha diqqətli olmaları tövsiyyə olunur. Biz ona da çalışırıq ki, motosiklet sürücülərinin özünün də bu və ya digər dərəcədə məsuliyyət hissi olsun. Yəni onlar kiminsə nəzarəti, göstərişi olmadan yol hərəkəti qaydalarına əməl eləsinlər, digər nəqliyyat vasitələrinin hərəkəti üçün təhlükə törətməsinlər. Biz birmənalı olaraq, bundan sonra da ona çalışacağıq ki, Bakı şəhərində motosiklet sürücülərinin iştirakı ilə baş verə biləcək qəzaların qarşısı tamamilə alınsın, və digər nəqliyyat vasitələri üçün mövcud təhlükə aradan qaldırılsın. Bunun üçün isə həm motosiklet sürücüləri, həm də digər sürücülər daha diqqətli olmalıdılar. Hava şəraitinin mürəkkəb olduğu günlərdə, yəni Bakıda yağış yağanda motosiklet sürücülərinin hərəkəti bir qədər də çətinləşir. Daha doğrusu, onlar sağdan və soldan digər nəqliyyat vasitələrini keçməklə, ötməklə hərəkəti çətinləşdirir və qəza vəziyyəti yaradır.

Göründüyü kimi, Bakı şəhərində olan motosiklet sürücülərinin yaratdığı mürəkkəb qəza şəraiti nəinki digər hərəkət iştirakçılarını, hətta yol polisini də ciddi narahat edir. Mən bir faktı da qeyd etmək istəyirəm ki, bizim yaşadığımız Yeni Günəşli yaşayış sahəsinin ”D” massivindəki 13 nömrəli binanın qarşısında da bu cür motosikletdən istifadə edən iki gənc var. Həyətdə 200-dən çox nəqliyyat vasitəsi olur.

### *Onların heç birinin səsi*

***həmin motosikletlərin səsi qədər ucadan çıxmır. Bu iki motosiklet sürücüsü onu necə idarə edirsə, həmin motosikletin səs-küyündən evdə oturmaq mümkün olmur.***

Eyni zamanda, küçələrin özündə də motosiklet sürücüləri sürətlə gedən anlarda belə qazı basaraq yüksək səs çıxarır və nəticədə ətrafdakı insanların əsəblərini və rahatlığını pozurlar. Bizim də bir fikrimiz ondan ibarətdir ki, bütün nəqliyyat vasitələrinin sürücüləri kimi, motosiklet sürücüləri də zəhmət çəkib yol hərəkəti qaydalarına əməl etməlidirlər. Ən azından ona görə ki, onlar yol hərəkəti qaydalarına əməl etməklə həm özlərinin təhlükəsizliyini təmin edir, həm də digər sürücülərin həyatı üçün qorxulu anlar yaratmırlar.

**Yenə qayıdaq həmin fikrimizin üstünə. Motosiklet sürücüsü sükan arxasında əyləşirsə, ilk növbədə dəbilqədən istifadə etməlidir. Sonra qanunlara, yol hərəkəti qaydalarına əməl etməyə borcludur. Bütün bu müsbət addımlardan sonra motosikletlərin sükanı arxasında əyləşmək olar. Təki kiminsə nəqliyyat vasitəsini idarə etməsindən digər hərəkət iştirakçısı narahat olmasın, həyatı üçün təhlükə törənməsin və hər hansı bir hərəkət iştirakçısı mənzilbaşına rahatlıqla gedib çatsın.**

**Faiq QİSMƏTOĞLU**

## *Həsən Ruhani: "Qarabağın azad edilməsi İran üçün də effektli olacaq"*



*Azərbaycanın işğal altındakı ərizilərinin azad edilməsi qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq əlaqələrinin inkişafına müsbət təsir göstərəcək.*

*Bu sözləri İran Prezidenti Həsən Ruhani hökumətin iclasında deyib.*

*Prezident bildirib ki, Qarabağın işğaldan azad edilməsi və müharibənin başa çatması İran iqtisadiyyatının dirçəlməsi üçün də effektli olacaq. Müharibə Azərbaycanın İran ilə sərhədinin işğalçılardan azad edilməsi ilə nəticələnib. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi artıq ilk müsbət təsirini göstərib. Bu, İran və Azərbaycan arasında "Xudafərin" hidroqovşağı haqqında yekun anlaşmanın əldə olunmasından ibarətdir. H.Ruhani deyib ki, tezliklə bu hidroqovşaqdan istifadə olunaraq İranın 120 min hektar ərazisi su ilə təmin ediləcək. Bu isə kənd təsərrüfatı məhsullarının istehsalının artımına və əkin sahələrinin daha da genişlənməsinə zəmin yaradacaq.*

*MEHRİBAN*

# BAYDEN KİBERHÜCUMLARA CAVAB VERİLƏCƏYİNİ BƏYAN ETDİ

**ABŞ-ın yeni seçilmiş prezidenti Co Bayden Delaver ştatında keçirdiyi mətbuat konfransında söz verib ki, bu yaxınlarda amerikan federal idarələrinə edilən seriya kiberhücumlar cavabsız qalmayacaq.**



”Bizə imkan verin, dəyən ziyanın əhatədini müəyyən edək. Söz verirəm ki, bu hücumlara mütləq adekvat cavab veriləcək. Bunun üçün geniş imkanlarımız var”- deyə Bayden bildirib. Yeni prezident eyni zamanda hazırki prezident Donald Trampı, hələ də bu kiberhücumların arxasında kimlərin dayandığını müəyyən etməməkdə ittiham edib.

Co Bayden xatırladıb ki, hələ Barak Obamanın rəhbərliyi dövründə , vitse-prezident vəzifəsində işlədiyi vaxtlarda kibertəhlükəsizliklə bağlı beynəlxalq normaların hazırlanması təklifləri ilə çıxış edib. O, əlavə edib ki, dosları və tərəfdaşları ilə birlikdə baza qaydalarının müəyyənləşdirilməsi və bu işdə əli olanların cəzalandırılması məsələsinə baxılmalıdır.

Baydenin sözlərinə görə ”son hücumlar qətiyyətlə hazırlanıb və həyata keçirilib”. ”Bu hücumları hazlrlayanlar, federal hakimiyyəti onların hazır olmadığı vaxtda qəfil yaxaxalayıblar”. Onun fikirincə xakerlər texnoloji sektorun çox vacib sənədlərini oğurlamağa müvəffiq olublar.

”Tramp administrasiyası Ağ Evdə və Dövlət Departamentində kiberkoordinatorlarln vəzifələrini azaldaraq, kibertəhlükəsizliyi özlərinin prioritet vəzifələri saymayıblar” -deyə qeyd edən Bayden, Daxili Təhlükəsizlik Nazirliyinin Kibertəhlükəsizlik agentliyinin rəhbəri Kristofer Krebisin Tramp tərəfindən işdə çıxarılmasını misal çəkib. Associatet press agentliyinin məlumatına görə, artıq Ağ Ev kiberhücumlarda Rusiyaya qarşı ittihamla rəsmi bəyənat hazırlasada, onu dərc etməmək barədə göstəriş alıb.

**Donald Tram bununla bağlı bəyan edib ki, ”kiberhücumlar KİV-lərdə deyidiyi kimi, elə də təhlükəli olmayıb. Bundan başqa, bu hücumları Rusiya deyil, Çində həyata keçirə bilərdi”.**

**Rüstəm Hacıyev**



*Telman Əhməd oğlu Ağdamski*
*Azərbaycan Dövlət Dillər Universitetinin professoru, kimya elmləri doktoru, qabaqcıl təhsil işçisi, Əməkdar müəllim, Y.Məmmədəliyev mükafatı və "Üzeyir Hacıbəyli" fəxri medalının laureatı*

# ELM VƏ TƏHSİL FƏDAİSİ, TƏŞKİLATÇISI

## Unudulmaz müəllimim haqqında xatirələrim

**Dünya şöhrətli kimyaçı, görkəmli alim və həm də müdrik İnsan olan Azərbaycan xalqını, onun elm və mədəniyyətini dünya tarixinə özünün qızıl hərfləriylə yazan tarixi şəxsiyyətlərimizdəndən biri də Yusif Heydər oğlu Məmmədəliyevdir.**

Öncədən xatırladım ki, Yusif Məmmədəliyev qeyri-adi elmi-pedaqoyi qabiliyyəti və məharəti, parlaq zəkası, elmdə həmişə yeni istiqamət açmağa çalışması və bu sahədə dəyərli müvəffəqiyyətlər əldə etməsi ilə ölkəmizin hüdudlarından çox-çox uzaqlarda diqqəti çəkmiş və özünün halal şöhrətini qazanmışdır. Belə ki, hər bir xalqın həm ictimai, həm də fərdi çalarlara malik olan övladları mütləq mənada öz xalqına başucalığı gətirir. Bu mənada seçilmişlər digərlərindən, bütünlükdə öz çevrələrindən həm fərd olaraq, həm də istedad olaraq seçildiklərini heç vaxt bəyan etmirlər. Onları zaman seçir, yaşadır və onlara əbədi bir ömür bəxş edir. Bax, bu anlamda şöhrətləri şəriksiz olan müdriklər arasında Yusif Məmmədəliyevin dayandığı mövqe danılmazdı və hər tərəfdən də görünür. Ona hansı bucaq altından baxırsan bax, dayandığı nöqtə Yusif Məmmədəliyev NÖQTƏSİ olmaqla diqqəti çəkir.

***Bu da məlumdur ki, hər bir insan təkcə istedadı ilə deyil, yaradıcılıq potensialını ortaya qoymaqla bahəm, həm də bir vətəndaş, bir Allah bəndəsi olaraq əməllərilə də önəmli olur. Yəni saydığımız bu çalarlar istedad sahibində birləşəndə onun nuru da, bəşəriyyətə etdiyi töhfələri də daha böyük qiymətə layiq olur. Bax, bu mənada xeyirxah əməllərinin sayı-hesabı olmayan, göstərdiyi qayğı və diqqətlə hər kəsdən seçilən Yusif Məmmədəliyev mənim üçün insanlıq etalonudur. Ona görə də o həm ustadım, həm müəllimim, həm xeyirxahım, həm də xalqımın böyük oğlu kimi hər an xatirimdədi, yaddaşımdadı. Tam səmimi şəkildə etiraf edirəm ki, bugünkü mövqeyimə, bugünkü durumuma görə, hər zaman ona minnətdaram və bu minnətdarlıq hissi mənim həyat kredomdur.***

Hər dəfə elmi disskusiyalar, xatirə söhbətlər, eləcə də doğum tarixi ilə bağlı məqamlar dilə gətiriləndə özümü yenə də onun qarşısında tələbə kimi görürəm. Elə həmin məqamda da çiynimdə onun əlini, yolumda yandırdığı işığın şölələrini hiss edirəm.

Bu müdrik, bu ipəkdən də yumuşaq insanın mənim üçün nə qədər əziz olduğunu sözlə ifadə etmək heç də asan deyil. Amma qürurverici, xöşbəxtliyin özü qədər şirin olan bir an var. O da mənim Yusif Məmmədəliyevin tələbəsi olmağımdır. Bugünkü kimi yadımdadır onunla ilk tanışlığım. 1953-58-ci illər idi. Mən Azərbaycan Dövlət Universitetinin kimya fakültəsində təhsil alırdım. Həmin vaxt bizə neft kimyası fənnindən mühazirəni Yusif Məmmədəliyev oxuyurdu. Burada onu da qeyd edim ki, Yusif müəllim həmin vaxt həm də universitetin rektorları olmuş ədəbiyyatşünas, tənqidçi alim Cəfər Xəndan və görkəmli geoloq Şəfaət Mehdiyevlə bərabər çalışırdılar. Yəni bu insanların hər birini şəxsən görüb tanıdığımdan onları da xatirlayıb yada salmağı özümə borc bilirəm. Təbii ki, biz tələbələr Yusif müəllimin mühazirə saatlarını səbirsizliklə gözləyirdik. O, özünün aydın nitqi və məntiqli danışığı ilə hamımızın fikrini bir nöqtəyə cəmləyib və izah etdiyi mövzunu bizə çox ustalıqla "həzm" etdirirdi. Digər fənn müəllimlərindən fərqli olaraq Yusif müəllimin mühazirələrində auditoriyada yalnız onun səsi eşidilir və hamı da nəfəs almadan acgöz bir maraqla onu dinləyirdi. Neft kimyası fənnini o elə sevdirirdi ki, hətta başqa və yuxarı kursların tələbələri onu dinləmək üçün bizə qoşulurdular. Burada bir məqam da var idi. Yusif Məmmədəliyev tədris etdiyi fənni digər sahələrlə də əlaqələndirir, fiziki kimya ilə xüsusi-üzvi kimyanı və digər kimya sahələrini elə əlaqələndirirdi ki, tələbə bir fənni dinləyəndə digərlərindən də xəbərdar olurdu. Bu isə həm onun pedaqoq kimi peşəkarlığından, həm də sahəsini mükəmməl bilməsindən xəbər verirdi. O, tələbələrə mühazirəni söylədiyi zaman bəzən auditoriyaya sualla müraciət edir, kimin nəyi anlamadığı ilə maraqlanır, lövhəyə dəvət edib təmkinlə mühazirənin mövzusunu şərh etməyə mənimsədiyini ifadə etməyə şərait yaradırdı. Bax, bu da mühazirəni canlandırır, onun asan mənimsənilməsinə kömək edirdi. Necə deyərlər, bir növü "canlı dərs" təşkil olunurdu və bu da tələbənin həm fənnə marağını, həm də mənimsəmə səviyyəsini artırırdı.

***Yusif müəllimin dərslərində mən həmişə ön cərgədə oturur və o lövhəni yazıb dolduranda yavaşca ayağa qalxıb təmizləyirdim. O da mənə asta səslə "sağ ol, oğlum" deyirdi. Bax, onun bu pedaqoyi təcrübəsini mən özüm üçün mənimsədim və gələcək müəllimlik fəaliyyətimdə bir növü onu təkrar etməyə başladım. Bu gün də auditoriyada olanda özümü həmin adətdən kənara çıxara bilmirəm.***

1954-cü ildə Yusif Məmmədəliyev universitetin rektoru təyin olundu və bu da universitet həyatının daha da canlanmasına, onun elmi hüdudlarının genişlənməsinə əlavə bir təkan oldu. Təbii ki, bu vəzifə Yusif müəllimə imkan verdi ki, universitetin kimya fakültəsinin həyatını yeniləsin və canlandırsın. Yəni edilən dəyişiliklər kimya fakültəsinin tələbələrini bir növü önə çıxardı. Tələbə-Elmi Cəmiyyətinin fəaliyyəti daha da canlandı. Tələbələrin kafedralarda elmi işlərə cəlb olunması aktuallaşdı. Deməək olar ki, kimya fakültəsində həyat qaynamağa başladı. Həm elmi baxımdan, həm də ictimai baxımdan kimya fakültəsi seçilməyə başladı. Keçirilən tədbirlər, xüsusilə Novruz bayramı, Yeni il şənliyi və digər əlamətdar günlərin qeyd olunması universitet həyatına öz müsbət təsirini göstərirdi. Burada bir məqam da Yusif müəllimin kimya elminə olan danılmaz sevgisi idi. Onu da qeyd edim ki, bu sevgini ona bağışlayan görkəmli kimyaçı alim Sadiq Hüseynov olmuşdu.

***Yusif Məmmədəliyev kimya elminə olan sevgisiylə yanaşı, poeziyanın da vurğunu idi. Sonralar mən də bu nəticəyə gəldim ki, elm və poeziya arasında sıx bağlılıq var, onlar bir-birini tamamlayır. Çünki hər ikisi axtarışlara əsaslanır. Poeziyanın da, elmin də öz qanunauyğunluqları olmaqla yanaşı, onların ikisinin də fəlsəfi dərinliyi hər kəsi cəlb edir. Və bu elə bil hissdi ki, onu ancaq yaşamaqla duymaq mümkündür. Mən bu fikirləri yazarkən bir daha xatırlayıram ki, Yusif müəllimin masasının üstündə həmişə Azərbaycanın dəyərli şairlərinin kitabları olardı.***



Universitetdə oxduğum illərdə mən də qarşıma məqsəd qoymuşdum ki, mütləq elmlə məşğuı olacam, araşdırmalar aparacam. Bunu mənim qarşıma məqsəd kimi qoyan da məhz Yusif müəllimin mənə verdiyi stimul, dəstək idi. Çünki Yusif müəllim öz həyatı ilə bağlı söylədiklərini düşündükcə mən də onun yolu ilə getməyi qərarlaşdırmışdım. Yusif müəllim deyirdi ki, 3 il müəllim işlədikdən sonra Moskva Universitetində təhsil alıb və burada görkəmli alim Nikolay Dmitriyeviç Zelinski ilə qarşılaşıb. Görkəmli alim, akademik Zelinski Yusif müəllimə "mənim tələbəm" deyirdi və onu öz övladı qədər sevib onunla qürur duyurdu. Çünki Yusif müəllim onun tələbələrinin ən yaxşılarının yaxşısı idi. Dəfələrlə beynəlxalq elmi konfranslarda birlikdə iştirak etmişdilər. Hətta bu yaxın illərdə Yusif müəllimin anım tədbiri ilə bağlı keçirilən beynəlxalq konfransa Zelinskinin oğlu da qatılmışdı. Bu da həmin ailənin Yusif müəllimə olan ehtiramının, sevgisinin bir göstəricisidir.

Akademik Yusif Məmmədəliyevin elmi uğurları ilə yanaşı, bir ziyalı müdrikliyi də həmişə diqqət mərkəzində olub. Buna görə də o, yaddaşımızda kimyaçı alim kimi alim kimi deyil, həm də ədəbiyyat, fəlsəfə, tarix sahələrini dərindən bilən, mədəniyyətimizin çalarlarını hər kəsə çatdıran və ürəyində xalqına böyük sevgi yaşadan bir insan kimi qalıbdı. Alimlik və insanlıq onun ən böyük titulu idi. Çünki bu titulu heç bir rəsmi göstərişlə, qərarla əldə etmək mümkün deyil. Bu, Allah vergisidi. Bu sevgi ilə isə Allah yalnız sevdiklərini mükafatlandırır. Mən Yusif müəllimin tələbəsi kimi onun təkcə alimliyini yox, həm də böyük insanlığını zaman-zaman izləyib öyrənmişəm.

Və hər dəfə də təzə bir çalar, təzə bir nüans tapmışam. Görmüşəm ki, bu insan tədqiqatlar aparanda nə qədər həssas olurdusa, qarşısındakı insana da o həssaslıqla yanaşır. Şəxsən mənim elm ardınca getməyimə, təhsilimi artırmağıma onun göstərdiyi diqqət və qayğı söylədiyim həmin xarakterin bir cizgisidir. Hər dəfə məni önə çəkən, məni həvəsləndirən, maddi sıxıntılarımı unutdurmağa çalışan Yusif müəllim deyirdi ki, sən bu işi davam etdirməlisən! Sözün deyilişi, yanaşma, münasibət məni ruhlandırırdı. Nəticələrimdən onun razı qalması ürəyimə bir rahatlıq gətirirdi.

***Mən bu yazımda Yusif müəllimin etdiyi kəşflərin, qazandığı elmi uğurların adlarını ona görə çəkmirəm ki, bu uğurlar, bu adlar artıq tarixiləşib, əbədiləşib. Onların üzərində Yusif Məmmədəliyev möhürü var. Sadəcə, bir məqamı xatırlatmaq istəyirəm. 13 sentyabr 2004-ci il. Parisdə UNESCO-nun iqamətgahında dünya şöhrətli alimin 100 illiyinə həsr olunmuş möhtəşəm bir tədbir keçirilirdi. Həmin tədbirdə vurğulandı ki, Yusif Məmmədəliyevin əldə etdiyi böyük elmi uğurlar neft-kimya sənayesini ön cərgəyə çıxardı. Onun ixtiraları İkinci Dünya Müharibəsindəki qələbənin əsas şərtlərindən biri oldu. Zənnimcə, bu, Yusif müəllimin xidmətlərinə verilən qiymətin bir nümunəsidir.***

Müəllim haqqında danışmaq, xatirə yazmaq tələbə üçün həmişə çətin və məsuliyyətli olub. Amma mən həyatımın elmlə bağlı bütün anlarında öz müəllimimi həmişə önümdə, qarşımda görmüşəm. Bu səbəbdən də onun barəsində fikir söyləmək, məsuliyyətini dərk edib həm də düşünmüşəm ki, mütləq o böyük insanın ürəyində olan abidəsinə göstərdiyim ehtiramı bir neçə sözlə bugünkü insanlara, oxuculara çatdırım. Axı gəncləri, xüsusilə tələbələrini böyük ürəklə sevən, onlara sabahın yolunu göstərən və hər birinə qarşı da diqqətli olan Yusif Məmmədəliyev mənim üçün insanlığın böyük mənada simvoludu. Elə bu məqamda bir xatirəni qeyd etmək istəyirəm.

**1960-cı ildə Akademiyada aspiranturaya qəbul keçirilirdi. Mən də qəbulda iştirak edirdim. Bu zaman dedilər ki, Akademiyanın prezidentinin təşəbbüsü ilə bütün institutlar üzrə qəbul olunanlar SSRİ-nin Moskva və digər şəhərlərinə göndəriləcəklər. Bax, onda Yusif müəllim aspirantiraya qıəbul olunanları özü şəxsən qəbul edərək hər kəsə məsləhətlərini verdi. Mənə növbə çatanda real vəziyyətimi ona danışdım. Axıra kimi məni dinlədi və dedi ki, sənə Moskvaya getmək mütləq lazımdı. Mən bunu sənə məsləhət bilirəm. Çətinliklərdən qorxma, get! Təbii ki, mən də getdim. 1961-ci ildə Moskvada onunla görüşdüm. O, qurultaya nümayəndə kimi gəlmişdi. Və mənə də MDU-nun yataqxanasında yer almağıma köməklik göstərdi. İkinci dəfə Moskvaya gələndə isə noyabr ayı idi. Bu dəfə də mənimlə maraqlandı və Bakıya dəvət etdi. 10 gündən sonra görüşməli idik. Lakin bu görüşümüz baş tutmadı. Xəbər tutdum ki, Yusif müəllim haqqa qovuşub. Bu günə qədər o ağrılı anı unuda bilmirəm. Çünki Yusif müəllim alim kimi də, insan kimi də unudulması mümkün olmayan müdriklərdən, müqəddəslərdən biri idi. Allah ona rəhmət eləsin!**

# Azad Qarabağda turizm potensialı: Təbiəti, tarixi abidələri, müalicə mərkəzləri...

**Mən qarabağlıyam! Dünyanın ən gözəl və ecazkar guşəsi, dünyanın ən qiymətli təbii sərvətlərinə, dünyanın ən qədim tarixinə məskən olan Qarabağdan! Bir dəfə Qarabağ üçün qəlbimin yanıb-qovrulduğu günlərdən biri idi və həmin vaxt təsadüfən əlimə bir məqalə düşdü. Məqalədə tanınmış yazıçı Aqil Abbasın yurdumuz haqqında fikirləri yanan ürəyimi bir daha yandırdı. A. Abbas yazırdı:" Mən həyat yoldaşım İradəylə birlikdə dünyanın çox yerlərini görmüşəm. İsveçrəni də görmüşəm, Alp Dağlarını da. Alp Dağları Qarabağın yanında heç nədir. Qarabağ kimi gözəllik bu dünyada yoxdur". Həmin günü yuxum ərşə çəkildi, xəyallarım kükrədi, 28 il üzünə həsrət qaldığım, o zümzüməli bulaqları, çağlayan şəlalələri, gurultusunda ağız deyəni qulaq eşitməyən dağ çaylarını, yamyaşıl meşələri, "Xanlıq" xalçası kimi minbir rəngə çalan çəmənləri yaddaşımda yenidən çanlandı.**

Bəli, bizim üçün yaşamalı-ölməli, turistlər üçün isə gəzməli, görməli, bilgi toplamalı, istirahət etməli, haqqında xatirələr yazılmalı məkandı Qarabağ!

### *Qarabağın təbiəti*

Atam "Kamaz" sürücüsü idi. Bu səbəbdən tez-tez bizi götürüb dağlara -gəzməyə aparardı. Ona görə də, Qarabağın gəzmədiyim bir köşəsi qalmamışdı. Yay tətilimin keçdiyi Kəlbəcər rayonu nəinki Azərbaycanın, eləcə də, dünyanın heç bir köşəsinə bənzəmir .

Yay yeni başlayanda aran kəndləri malını-heyvanını, ailəsini götürüb Taxtabaşına köçürdülər. Sünbüllü, Gülnazoğlu, Qərvənd , Hacı Pənahın, Buzxana, Boğaz, Gicitkanlı, Çala , Şurabad, Çullu, Solaxayıçala , Köhnə binələr, Mahmudun yurdu, Məndilin yurdu, Səlim bəyin yurdu, Ləzgi və digər yurdlar, birlikdə Taxtabaşı yaylağı adlanırdı. "Zülfüqarlı İstisuyu" , "Böyük isti su" aran əhalisinin ən çox getdiyi yerlər olardı.

İşğaldan əvvəl Şuşaya təşrif buyuran turistlərin ən sevimli yerlərindən biri də əvəzsiz və əsrarəngiz təbiətə malik Cıdır düzü idi. Cıdır düzünün qərb tərəfi bir-birinin arxasında yerləşən üç hündürlükdən ibarətdir. Bu təpələrə "Üçmıx" adı verilib. Cıdır düzündə hər il may ayında "Xarı-bülbül" mahnı festivalları keçirilirdi. Rus rəssamı V.Vereşşagin Şuşa barədə belə yazmışdır: "Onun evləri düzgün formalı qəşəng və hündürdür, çoxsaylı qəşəng pəncərələrdən evlərə işıq düşür. Şəhər qayalar üzərində yerləşir və elə həmin qayalardan çıxarılan daşlardan tikilmişdir. Bütün küçələrə enli plitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir". Ümumiyyətlə, Şuşa şəhər arxitekturası, tikilmiş hər ev bir sənət əsəridir və şəhərin təbii gözəlliklərinə bir qatqıdır.





***Laçın rayonunun unikallığı o idi ki, 1 saatın içərisində hava bir neçə təbə düşürdü. Gün işıldadığı anda qəflətən duman gəlir, duman çəkiləndə isə qara, zəhmli buludlar göyün üzünə yayılardı. O anda elə bir yağış başlardı ki...***

Bakıdan cəmi 505 km uzaqda olan, dəniz səviyyəsindən 1600 metr hündürlükdə yerləşən Laçının Minkənd kəndi yay fəslini ən az yaşayan bölgəmizdi.

Azərbaycanın aran rayonlarında havanın tempraturu 43-45 dərəcə isti olanda Minkənddə havanın temptaturu 15-18 dərəcə olur. Ərazisindən Həkəri və Bərgüşad çayları axan Qubadlı da, Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsi sahəsinə görə, dünyada ən böyük çinar meşəsi olan Zəngilan da adıgedən rayonlardan geridə qalmır. 104 kəhriz və 99 bulağı olan Cəbrayılın, Araz çayı boyunca İranla həmsərhəd olan Füzulinin, aran və dağlıq hissəyə malik olan Ağdamın gözəlliklərini duymaq üçün ən azı bir dəfə o yerlərdə olmaq yetər.

### *Qarabağın tarixi abidələri və məkanları*

***Qarabağın təbiəti ibtidai insanların yaşaması üçün əlverişli olduğuna görə, bu yerdə qədim insan məskənləri mövcuddur. Bir dəfə Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrinin Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılovla müsahibəmdə o bildirdi ki, İşğal edilmiş ərazilərdə təxminən 4500 abidə aşkar edilib. Bəli, bütün dünyaya da məlumdur ki, Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən biridir. 2 mln il yaşı olan Azığ düşərgəsi insanlarının yaşadığı ərazidir.***

Qarabağ ərazisi paleolit dövrünün Quruçay mədəniyyəti yaradıcılarının Tunc və Dəmir dövründə mövcud olan və bir-birini əvəz edən Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin davamçılarının yaşayış məskənidir. Qarabağın dağlıq və düzən hissəsində aşkar edilmiş qədim daş abidələr-Xocalıdakı dolmenlər, Xankəndindəki kromlexlər, eləcə də, Qarabağın müxtəlif yerlərindən aşkar edilmiş antik dövrə aid daş qutu qəbirlər həmin dövrün ideologiyasını-mənəvi düşüncə əks etdirən maddi mədəniyyət nişanələridir.

***Qarabağ tarixinin qədimliyini, qalalar, müşahidə məntəqələri, arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət abidələri və nümunələri, qədim sikkələr və məişət qabları sübut edir. 60-cı illərdə təsərrüfat işləri zamanı xeyli küp qəbirlər (küb qəbirlər Azərbaycanda e.ə. II əsrdən eramızın əvvəllərinə kimi mövcud olmuşdur) və e. ə. IV - II əsrlərə aid edilən və əksəriyyəti Makedoniyalı İsgəndərin adına zərb olunan onlarla sikkə ərazinin lap qədim zamanlardan beynəlxalq ticarətdə mühüm rol oynadığından xəbər verir.***

### *Qarabağın təbii möcüzələri və sağlamlıq ocaqları*

Hələ 1138-ci ildə Kəlbəcərdə zəlzələ zamanı yerin çatlaması nəticəsində İstisu mineral bulaqları əmələ gəlib.

El arasında "Böyük istu su" və "Zülfiqarlı İsti suyu" daha çox məşhurdu. Öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə, bu sular Çexiyanın məşhur olan Karlovı-Varı bulaqlarının eynisi olsa da, bir çox digər xüsusiyyətlərinə görə dünyada yeganədir.

Bir sözlə, Kəlbəcər İstisuyu və "İstisu" sanatoriyası ilə dünyada tanınıb. Təbii sərvətlərlə zəngin olan Laçında Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turş-tiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar mövcuddur.

Bir dəfə Şuşa Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Romik Məhərrəmovdan müsahibə alarkən, o, Şuşanın respublikada turizm üçün ən unikal məkan olduğunu söylədi:" Şuşa dəniz səviyyəsindən 1160-1210 m yüksəklikdə yerləşdiyinə, havasının, suyunun minbir dərdə dərman olması səhhətində problem olanları da bura cəlb edib. Şuşanın sanatoriya və kurortları keçmiş sovet məkanında -Baltikyanı respublikalarda, eləcədə Avropa ölkələrindən üstün olub və özünəməxsusluğu ilə seçilib.

Əsrarəngiz təbiətinə görə, bu yerlərə güclü turizm axınını olub. Şuşa kurortunun əsası 1941-1945 -ci il ildə qoyulsada inkişafı müharibədən sonra başlayıb. 1969-cu ildə "Narzan" tipli karbohidratlı Şırlan mineral suyu 30 km. məsafədən çətin dağ yolları ilə Şuşa şəhərinə gətirilib. Şuşa kurortunda tənəffüs yolları,, sinir-əsəb , maddələr mübadiləsi, qan azlığı ilə yanaşı mədə-bağırsaq xəstəliklərinin müalicəsi də mümkün olub".

Baş həkim bunu da vurğulayıb ki, təməli 1939-cu ildə qoyulan ixtisaslaşdırılmış respublika uşaq sanatoriyasında hər il 800-1000 vərəmli uşaq müalicə alırdı:" Şuşa turist bazası isə 1970-ci ildə müstəqil fəaliyyətə başlayıb, sonradan "Şəfa" turist bazasına çevrilib. Əlavə 6 kottec quraşdırılıb və turist bazası əvvəllər il ərzində 6000 nəfər turist qəbul edirdisə, sonra turistlərin illik sayı 11-12 min nəfərə çatırdı". Yadımdaykən qeyd edim, 1984-cü ildə Şuşa Səyahətlər və Ekskursiyalar bürosu, 1990-cı ildə Zamanpəyə kəndi yaxınlığında 8 kottecdən ibarər 120 nəfərlik "Soyuqbulaq" turist bazası açıldı. Ümumiyyətlə, Qarabağ bölgəsi turizm üçün potensial gücə malik bir ərazidir.

**Zənnimcə, Müzəffər Azərbaycan Ordusunun böyük Qələbəsindən sonra başlanacaq tikinti-quruculuq işlərini sürətləndirmək, turizmin bütün növləri üzrə turların reallaşdırılmasına tələsmək lazımdır.**

**Əntiqə Rəşid**

# İSLAM SADIĞIN "TANRI DİLİ, TÜRK DİLİ, ŞUMER DİLİ" MONOQRAFİYASI NƏŞR OLUNUB

**Bu günlərdə tanınmış şair, filologiya elmləri doktoru, AMEA Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsinin əməkdaşı İslam Sadığın "Tanrı dili, türk dili, şumer dili" adlı yeni kitabı işıq üzü görüb.İslam Sadığın bu əsəri şumer və türk dillərinin qohumluğunu təsdiqləyən çox dəyərli araşdırmadır. Uzun illərdir bu sahədə hərtərəfli elmi araşdırmalar aparan tədqiqatçının bugünə qədər "Şumerdə izim var"(Bakı: Azərnəşr, 2008), "Şumer və türk dastanları"(Bakı: Azərnəşr, 2012) və "Şumer ədəbiyyatı"(Bakı: Azərnəşr, 2013) adlı üç monoqrafiyası çap edilib. Araşdırmaçı həm də bu mövzu ilə bağlı 100-dən çox elmi və publisistik məqalənin müəllifidir.İslam Sadığın "Şumer və türk dastanları" kitabı ötən il Türkiyədə"Lambert" nəşriyyatı tərəfindən yayımlanıb. Hazırda həmin monoqrafiya Avropanın 8 dilinə tərcümə edilərək nəşr olunur.**




**Azərbaycan Dövlət Nəşriyyatında (Azərnəşr) çapdan çıxan "Tanrı dili, türk dili, şumer dili" kitabı 464 səhifədən, 21 başlıqdan, nəticə və xülasədən (zaklöçenie; summary) ibarətdir. "Tanrı dili, türk dili, şumer dili" kitabı 2012-ci ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasında müzakirə edilmiş və çapı məsləhət bilinmişdir. Monoqrafiyanın elmi redaktoru akademik Nizami Cəfərov, rəyçiləri professor İsmayıl Məmmədli, professor Nizami Tağısoy və filologiya elmləri doktoru İlhami Cəfərsoydur. Kitabda şumer və türk dilləri arasında olan oxşar cəhətlər, hər iki dildə işlənmiş 1000-ə qədər sözün mənası açıqlanmışdır. Bundan başqa, kitabdakı"Şumer və türk dillərində heca qanunu", "Şumer və türk dillərində ilk sözlər və səs artımı yolu ilə söz yaradıcılığı", "Şumer və türk dillərində eyni semantik söz yuvaları", "Şumer və türk dillərində bədən üzvlərinin adlarını bildirən terminlər", "Şumer dilinin ləhcələri","Şumer və türk dillərində işlənmiş eyni və oxşar sözlər" və s. kimi başlıqlar altında türk və şumer dillərinin qohumluğunu təsdiqləyən çoxsaylı və təkzibedilməz faktlar üzə çıxarılmışdır.Bütövlükdə Şumer və türk dillərində olan 1000-ə yaxın sözün mənasının qarşılaşdırılması və açıqlanması digər arqumentlərlə birlikdə hər iki dilin qohumluğunu əsaslı dəlillərlə və ilk dəfə elmi müstəvidə sübut edir.**

**"Tanrı dili, türk dili, şumer dili" kitabı dilçilər, tarixçilər, filoloqlar, tələbələr, müstəqil araşdırmaçılar, ümumilikdə şumerologiya elmi ilə maraqlananlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.**

**Eltac ELMANOĞLU**

# Kamil Şirinovun qürur ünvanı olan adı

**Tarixən Vətən müqəddəsdir, vətən əzizdir deyib, onun hər qarış torpağını göz bəbəyi kimi qorumağa çalışan, hətta bu yolda canından keçməyə hazır olan, ömür yollarında əvəzsiz qəhrəmanlıqlar göstərən, bir sözlə tarixdə xariqələr yaradan vətən övladlarının adları heç zaman unudulmayıb, heç zaman da yaddaşlardan çıxmayıb. Bəli, taleyinə çoxları kimi Vətəni sevmək, onun hər qarış torpağına bağlı olmaq istəyi yazılmış şəhid kapitan Şirinov Kamil Əlişoğlunun ömür yolları haqda söhbət düşərkən, o zaman bəlli olur ki, adı çəkilən bu igid oğul da, məhz canını, qanını torpaqlarımızın bütövlüyü uğrunda qurban verməyə hazır olan Vətən övladlarından biri olur. Bəli, zaman keçəcək, illər bir-birini əvəzləyəcək, o halda adı hər kəs tərəfindən iftixar hissi ilə çəkiləcək Kamil Şirinovun atdığı addımlara, məhz tarixin özü lazım olduğu qiymətini verəcək. Çünki, o, ölümü ilə ən uca bir zirvəyə, məhz Şəhidlik zirvəsinə ucalmış Vətən oğullarından biridir.**

Şəhid kapitan Şirinov Kamil Əliş oğlu 9 aprel 1991-ci ildə Salyan rayonunun Çuxanlı kəndində anadan olmuşdur.

Qeyd edək ki, o, ata-anasının böyük övladı olur və 1997-ci ildə doğulub boya-başa çatdığı Çuxanlı kəndindəki şəhid Ziyad Həmidov adına tam orta məktəbdə təhsil alır.

Elə ki, Kamil Şirinov 2006-cı ildə həmin məktəbin 9-cu sinif şagirdi olur, o halda o, öz istəyi ilə hərbi məktəbə daxil olmaq qərarı verir və həmin ildə də, Cəmşid Naxçivanski adına hərbi məktəbə daxil olmaq məqsədilə imtahan verib, məhz arzusunda olduğu belə bir istəyinə nail olur.

### Üç il təhsilini davam etdirdikdən sonra

o, 2009-cu ildə Heydər Əliyev adına Ali Hərbi Akademiyaya daxil olur. Dörd il ərzində bu akademiyanı əla qiymətlərlə və qüsursuz davranışı ilə başa vuran Kamil Şirinov, 2013-cü ildə ali hərbi təhsilini uğurla başa vurur və çox keçmir ki, "N" saylı hərbi hissədə xidməti fəaliyyətinə başlayır. Qəhrəmanımızın



hərbi sahəyə istəyi o qədər çox olur ki, o, ən çətin sahələrdən biri hesab olunan Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etməyi də qarşısına əsas məqsəd qoyur.

Düzdür, Kamil Şirinov bu yöndə istəyini ilk əvvəl atasına bildirsə də, o, belə bir istəyini bir müddət anasından gizli saxlamağı bacarır.

Çox keçmir ki, XTQ-in sıralarına daxil olan Kamil Şirinov, bu sahə üzrə təhsilini uğurla davam etdirir və xüsusi təlimlərdə yaxından iştirak etməklə çətin sınaqlardan da keçir.

***Yəni çox keçmir ki, o, qarşısına qoyduğu bu yöndə məqsədinə çatır və XTQ-ə məxsus "N" saylı hərbi hissədə xidməti fəaliyyətinə başlayır. Gənc və peşəkar hərbçi olaraq onun əsas məqsədi işğal altında olan torpaqlarımızın azad olunması olduğundan, Kamil Şirinov heç vaxt hərbi xidmətinə aid məsələlər haqda bir kimsənin yanında söz-söhbət salmağı sevməzdi.***

Onu da qeyd edək ki, bu şəxs öz peşəsinə olduqca bağlı və sadiq olduğundan, həmçinin qüsursuz hərbi xidmət göstərdiyindən, bir neçə dəfə rəhbərlik tərəfindən mükafatla, medalla və fəxri fərmanla da təltif olunur. Bir sözlə, hərbi sahədə nümunəvi xidmət göstərmək, sanki Kamil Şirinovun ruhuna və qanına işləmişdir.

2016-cı ilin aprel döyüşlərində göstərdiyi qəhrəmanlıqlara görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev şəxsən onun əlini sıxmış və "Fərqlənmə medalı"nı onun özünə təqdim etmişdir. Bunu Kamil Şirinov özü və xalqı üçün qürurverici hal da hesab etmişdir. Bundan əlavə o, hərbi sahədə öz potensialını artırmaq üçün bir



neçə dəfə Türkiyə və Pakistanda hərbi təlimlərdə olmuş və atdığı addımlarına görə, bir neçə medalla da təltif olunmuşdur. O, Vətəni canından çox sevirdi və çox şükürlər olsun ki, bu gün torpaqlarımız yağı düşmənin tapdağından azad olunub. Belə bir halın varlığı, məhz onun ruhunun da şad olması deməkdir.

Bəli, Kamil Şirinov canından çox sevdiyi Vətən torpaqlarının bütövlüyü yolunda qorxmadan, heç bir halda çəkinmədən qanlı döyüşlərə atıldı və bu ilin 29 sentyabrında Füzuli uğurunda gedən döyüşlər zamanı şəhid oldu. O, yaralı yoldaşını döyüş bölgəsindən çıxararkən düşmənin snayper gülləsinə tuş gəlir və aldığı güllə yarasından təqribən 50 saniyə sonra dünyasını dəyişir. O, həmin anlarda ovucunun içində bərk-bərk sıxıb saxladığı üçrəngli Azərbaycan bayrağını döyüş yoldaşına uzadır və "bunu oğlum Turkaya verin" deməyi də unutmur.

Bu gün həmin üçrəngli bayraq Şirinovlar ailəsinin qürur mənbəyinə çevrilib ki, hal-hazırda onun kiçik qardaşı bir hərbçi olaraq qardaşı Kamilin yolunu davam etdirir. Qeyd edək ki, onların atası Əliş Şirinov da vaxtilə hərbçi olmuş və 1-ci Qarabağ müharibəsində də yaxından iştirak etmişdi. Kamil Şirinovun hərbi sahəyə meylli olması, bəlkə də onun hərbçi ailəsində anadan olması ilə bağlı olmuşdur.

### Şəhid kapitan

***iki azyaşlı övlad atası idi. Bu gün onun böyük oğlu Turkay iki yaşındadır, kiçik oğlu Tunar isə, altı aylıqdır. Kamil Şirinov gənc hərbçi olaraq 44 gün davam edən Vətən müharibəsində qorxmadan-çəkinmədən döyüşlərə atıldı və torpaqlarımızın bütövlüyü yolunda canından keçib əbədiyyətə qovuşdu. Artıq o, bir daha azyaşlı övladlarının qayğısına qalmayacaq, onlarla deyib-gülməyəcək. Nə qədər ağır, nə qədər çətin olsa da, onun atdığı addımlar ailə üzvləri üçün başucalığıdır, qürurverici haldır. Bəli, həmin körpələr böyüyüb boya-başa çatacaqlar və şəhid övladları olaraq da tanınacaqlar. Onlar ata deyə bilməsələr də, məhz atalarının qürurlu adı ilə hər zaman başıuca, alnıaçıq gəzməyi də bacaracaqlar.***

Ümumiyyətlə, şəhidlik uca bir zirvədir, elə bir zirvədir ki, ora əlçatmazdır. Bəli, kapitan Kamil Şirinov da öz qanı, öz canı bahasına həmin zirvəyə ucaldı.



Elə bir zirvəyə ki, həmin zirvə ucadan da ucadır! O, bu ilin avqust ayında kapitan rütbəsinə sahib olmuşdur və yaşının üstünə yaş gəldikcə, məhz vəzifə pilləsində də yüksəlirdi. Kamil Şirinov ölümündən sonra Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbə münasibəti ilə təsis olunmuş "Qarabağ ordeni" və "Vətən uğrunda" medalı ilə mükafatlandırılır.

**Hər kəsə bəllidir ki, əksəriyyətimiz son zamanlar dillərdə dastana çevrilmiş "Vətən yaxşıdır" mahnısını əzbər bilirik. Bəli, biz yurdumuza xəyallardan keçən dastanı yazdıq, Kamil Şirinov isə, hər kəsin xəyalında yaşaya biləcək bir dastan qoyub getdi. Ona görə də hər birimiz son nəfəsimizə kimi şəhid adına, şəhid ailələrinə borcluyuq. Atasını axtaran o körpələrə, hər gün Kamilin yolunu gözləyən həyat yoldaşına, minbir əzab-əziyyətlə böyütdüyü və sonda övladının nəşini çiyinləri üstə alıb son mənzilə yola salan ataya, oğul nisgili ilə hər gün o böyük Allah-Təalaya dua edib "Sən mənim canımı al" deyən gözüyaşlı anaya hər zaman borclu olacağıq. Əlbəttə, Vətən sağ olsun! Amma, onu da istərdim ki, Vətənlə birlikdə Şəhidim də sağ olaydı! Kapitan Kamil Şirinov, Şəhadətin mübarək, cənnətdəki yerin mübarək, Şəhid adın mübarək! Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza şəfa versin!**

**Hazırladı:**
**Günel HƏSƏNLİ**

## TƏBİB sədri: Koronavirus testini limitsiz etsək, real xəstələr kənarda qala bilər

**Əgər biz COVİD-19-a görə testi limitsiz şəkildə etməyə cəhd göstərsək, simptomları olmayan xəstələrin müraciətlərinə baxılsa, real xəstələr kənarda qala bilərlər. Ümumdünya Səhiyyə Təşkilatının da verdiyi tövsiyə budur. Buna əsaslanaraq nəticə çıxarırıq ki, kimdən test götürmək olar.**

**Bunu TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı açıqlamasında deyib.**

**Onun sözlərinə görə, bu kriteriyalar əsasında gün ərzində 15-20 min nəfərdən test götürülür.**

**R.Bayramlı qeyd edib ki, şəxsin burnundan alınan yaxma nəticəsində testin nəticəsi pozitiv olubsa və onda xəstəliyin kəskin dövrüdürsə, həmin şəxsin qanından da analiz götürərək qan zərdabında immunoqlobulin M anticisimlərinin varlığı araşdırılır. Bu anticisimlər xəstəliyin kəskin dövründə yaranan anticisimlərdir:**

**"Şəxsin virusa yoluxduğu diaqnozunu qoya bilmək üçün mütləq şəkildə yuxarı tənəffüs yollarından alınmış nümunələr PSR üsulu ilə analiz edilməlidir. Həmin analizin nəticəsi önəmlidir. Bizə tez-tez bu sual verilir ki, özünün yoluxmasından şübhələnən hər kəs bu testi etməlidirmi? Xəstəliyin əlamətlərini daşıyanlar, yəni hərarəti olanlar, yuxarı tənəffüs yollarında dadbilmə, qoxu bilməni itirənlər ərazi üzrə yaşadıqları poliklinikalara müraciət edirlər".**

**MEHRİBAN**



*Əbülfəz Muxtaroğlu*

## *Ürəyimdən tikan çıxdı*

**Çox hörmətli redaksiya otuz il həsrətlə gözlədiyimiz, tariximizə qızıl hərflərlə yazılan zəfər bayramımız münasibəti ilə kollektivinizin bütün əməkdaşlarını səmimi qəlbdən təbrik edirəm!**

**Torpaqlarımızın işğaldan azad olması Qarabağın Azərbaycanın bir hissəsi olması hamı kimi məni də sevindirir. Mənə elə gəlir ki, mən hamıdan daha çöx, ikiqat artıq sevinirəm. Ona görə ki, mən Qarabağ məsələsini ortaya atan erməni iqtisadçısı Aqanbekyanın ilk çıxışı günü ona bir məktub yazdım. Həmin məktub belədir.**

### *Aqanbekyana məktub*

*Nədən toxusan da hiylə torunu,*
*Bu tora heç kimi sala bilməzsən!*
*"yenidənqurma" da ad versən buna,*
*Bu yolda qələbə çala bilməzsən.*

*Çoxunun gözünə girə bilərsən,*
*Parisdə, Londond hürə bilərsən,*
*Qulağının dalın görə bilərsən,*
*Amma Qarabağı görə bilməzsən!*

*Ustasan, yamarsan qaranı ağa,*
*Təzə ad verərsən təpəyə, dağa.*
*Ancaq dil uzatma sən Qarabağa,*
*O xam xəyalındı, "hörə" bilməzsən.*

*Gözünə durmurmu o duz, o çörək,*
*Səni xəyallara aparır külək.*
*Oz ana dilini bilmədiyintək,*
*"Milli qəhrəman" da ola bilməzsən!*

*Eşitsin qoy arxan- o mister, o ser,*
*Min bir "Ocaq" oxu, min intervü ver.*
*Səsini eşidər yalnızca "derder",*
*Sən xalqın qəlbində qala bilməzsən.*

*Bir el məsəlini sən elə sırğa,*
*Boz eşşək harada batsa palçığa*
*Bir daha oradan getməz, ay dığa-*
*Sən burdan asan yol sala bilməzsən!*

*Qohumla, qardaşla daim varam, mən,*
*O tayla, bu tayla bəxtiyaram mən.*
*Çingizi, Oljası haraylaram mən,*
*Sən bir deşik qabsan, dola bilməzsən!*

*Dövran dəyişməyir öz gərdişini,*
*Varaqla tarixi, bil keçmişini.*
*Türk babam çəkibdi zəhər dişini,*
*Sən dişsiz ilansan, çala bılməzsən.*

### *Alqış*

*Min şükür yaradan böyük Allaha!*
*Qovuşduq vüsala, son qoyduq aha.*
*Bütövdür Vətənim bölünməz daha*
*Bu yolda canından keçənə alqış!*

*Soyuna, kökünə, elinə sadiq,*
*Andına,vədinə, dilinə sadiq,*
*Vətənin dağına, çölünə sadiq*
*İlhamı sərkərdə seçənə alqış!*

*Tez acılar düz işləri burduğu,*
*Məkirlidir oturduğu-durduğu.*
*Erməninin otuz ildə qurduğu*
*Sədləri üç deyə sökənə alqış!*

*Döyüşlərdə zəfər çaldı ordumuz,*
*Bayraqlara bülənd oldu yurdumuz.*
*Toy gözləyir neçə oğlan, neçə qız.*
*Gözünü yollara dikənə alqış!*

*Yuxusunda görmək üçün yatana,*
*Qərinəlik arzusuna çatana,*
*Qaçqınlığı, köçkünlüyü atana-*
*Ata ocağına köçənə alqış!*

*Muğamla açılır yenə səhərlər.*
*Yəhərlənib qəmər atlar, kəhərlər.*
*Axın-axın gəlir kəndlər, şəhərlər.*
*Cıdır düzündəki çövkənə alqış!*

### *Məmməd Araza məktub*

*Gözün aydın Məmməd Araz,*
*Qoca vulkan oyanıbdır.*
*Arxasında türk lideri*
*Mərd Ərdoğan dayanıbdır.*

*Baş komandan Heydəroğlu*
*Qarabağa cızıb yolu,*
*Bayraqlardı sagı-solu,*
*Yollar nura boyanıbdır.*

*Çürük ipdən yumaq olmaz,*
*Əsil kökdə yamaq olmaz,*
*İlhamla oynamaq olmaz,*
*Bu dünya indi qanıbdı.*

*Üzüm gülür, gördük çəmən,*
*Gülür vətən , açır çəmən.*
*Dünən qan-qan deyən düşmən*
*Boynun büküb sozalıbdı.*

*Açılmayan siz olmuşuq,*
*Bir müqəddəs pir olmuşuq.*
*Yumruq kimi bir olmuşuq,*
*Dığa bizi nə sanıbdı.*

*Şehlənibdir Xarıbülbül,*
*Vəcdəgələn sarı bülbül,*
*Səsləgəlsin yarı bülbül*
*Susam yenə ballanıbdı.*

*Qocalığı, korluğu yıx,*
*Muxtaroğlu səfərə çıx,*
*Qarabağı köksünə sıx,*
*Deməsinlər yubanıbdı.*

**Naxçıvan**



*Coşqun XƏLİLOĞLU*

# TƏQDİMAT

**(HEKAYƏ)**

Ara-sıra qəzetlərdə şeirlərim dərc olunsa da, özümü şair hesab etmirəm. Dostlarım, yaxınlarım məclislərdə mənə söz verəndə çıxışımı şeirlə ifadə etməyi xahiş edirlər.

Mən də onların sözlərini yerə salmıram. İstəyirəm danışığım maraqlı olsun, ürəklərə hərarət gətirsin, qəlbləri sevindirsin.

Amma ağlıma da gətirməzdim ki, qəsəbəmizdəki yanacaq doldurma məntəqəsinin sahibi mənim şeir yazdığımı bilər və günlərin birində evimizin qapısını döyərək, -Şair Mürşüdün evi buradır? -deyə soruşar.

Qapını açdım.

-Xoş gəlmisiniz, Zəbi müəllim, -deyib çağırılmamış qonağa əl uzatdım -keçin içəri.

Zəbi:

-Sağ olun, şair. Sizə işim düşüb -əlindəki qovluğu sol əlindən sağ əlinə keçirdi, - mənə kömək edin. Atamın şeirlərini gətirmişəm. Oxuyun, lazım olsa, düzəliş edərsiniz. Zəhmət haqqınızı ödəyəcəyəm. Axı, atam da sənin kimi şairdi-o, müraciətindəki "Siz"i "sən"lə əvəz elədi.

Mən:

-Lap yaxşı, verin mənə, baxaram.

Zəbi:

-İnşallah, sonra da, sənin Bakıda şair dostların olar, gedərik onların yanına, kişinin kitabını çıxardarıq . - O, əlini cibinə salıb bir dənə göy əskinazı-yüz dolları basdı ovcuma.

Pulu qaytarmaq istədim.

-Nə danışırsan, inciyərəm səndən, halal xoşun olsun. Bu hələ avansdır. -

Zəbi pulu təkidlə mənə verdi.

"Bir halda verir, alım, məcbur etmirəm ki...!" düşündüm.

Zəbinin atası Xanəli uzun müddət qəsəbədəki neft dükanında işləmişdi. Çoxdan, lap çoxdan təqaüdə çıxmışdı. Hesabla onun səksən beş-doxsan yaşı olardı. Heç vaxt eşitməmişdim ki Xanəli kişi şeir yazır. İndi onun oğlunun atasının şeirlərini gətirməsi mənə qəribə gəlsə də maraqla qovluğu aldım.

-On gündən sonra gələrəm. Bir də şair, kitaba giriş sözünü, -yəqin, ön söz, demək istəyirdi, -özün yazarsan.

Zəbi mənimlə xudahafizləşib ayrıldı. Qocaman şairin oğlu gedəndən sonra qovluğu açdım. Şeirlər makinada yazılmışdı. Başladım oxumağa.

"Həmkarım" necə də "incəqəlbli," "geniş ürəkli," "fitri istedad sahibi " imiş. O, nədən, kimdən yazmamışdı... Mövzular "rəngarəng, " üslub "müxtəlif," vəzn "yeni".

Qovluqda yüzə yaxın "şeir nümunəsi" toplanmışdı. Xanəlinin yazıları boş və mənasız söz yığınından ibarət idi. "Qovluğu nə üçün götürdüm, gərək qaytaraydım. Heç bir nəşriyyat Xanəlinin kitabını nəşr edib özünü biabır etməz." -ürəyimdən keçirdim. Elə bu an yadıma cibimdəki yüz dollarlıq əskinaz düşdü və fikrimdən daşındım. Mütləq Xanəli Uğurlunun şeir kitabı nəşr olunmalıdır, -qərar verdim. Amma onun yazılarını əvvəlcə şeir formasına salmaq lazım idi. Gecəni gündüzə qatdım, hər gün on-on beş şeir quraşdırdım. Sonra da başladım yazdıqlarımı tərifləməyə, məşhur tənqidçilərdən sitat gətirərək, xalq içərisindən çıxmış, əvvəllər neft satan Xanəli kişinin kitabının bədii məziyyətlərindən danışmağa. Axı, ön sözü də mən yazmalıydım.

İki həftədən sonra Zəbinin maşınına minib Bakıya - tələbəlik doztumun özəl nəşriyyatına getdik. Nadir müəllim bizi mehribanlıqla qarşıladı. Gəlişimizin məqsədini biləndə isə çox sevindi. Qovluğu naşirə təqdim etdik. O, bir neçə vərəq oxuyub:

-Gözəl şeirlərdi. Yaxşı ki, demokratiya var, yoxsa belə şairlərin yaradıcılığından xalq heç vaxt xəbər tutmazdı, -dedi.

Zəbi:

-Nadir müəllim, kişi yazır, mənim də borcum onları çap etdirməkdir, -güldü.

-Siz, çox xeyirxah iş görürsünüz, Zəbi müəllim, əhsən!

Nadiri yaxşı tanıdığımdan və onun ciddi danışığından şeirlərin xoşuna gəldiyinə şübhəm qalmadı.

Üçümüz birlikdə kitabın tərtibatını, tirajını və nəşr xərclərini müzakirə etdik. Razılaşdıq ki, mənim yazdığım ön sözə Nadir müəllim tanınmış şairlərdən birinə imza "atdırsın".

İki ayın tamamında kitab nəşr olundu. Zəbi məni evlərinə dəvət etdi. Qəsəbənin bütün vəzifə sahibləri burada idilər. Ağsaqql "şairin" nəfis tərtibatla nəşr edilmiş kitabının təqdimat mərasimi keçirilirdi. Ömründə boynuna bəlkə də birinci dəfə qalstuk bağlamış "azman sənətkar" məclisin lap yuxarı başında əyləşmişdi. Zəbi mərasimi açdı, qonaqları salamlayıb, başladı atasını tərifləməyə. Sonra rayonun ən hörmətli ağsaqqalı Beydulla müəllim, icra nümayəndəsi və bazarkom bir-bir danışdılar, Xanəli kişinin ünvanına gözəl-gözəl sözlər dedilər. Mədəniyyət evinin işçisi Sülhiyə xanım şirin və həzin bir səslə kitabdan şeir parçaları oxudu. Orta məktəbin direktoru Mənsim müəllimin çıxışı lap hərarətli oldu. O, "canlı klassik" Xanəli Uğurlunun yaradıcılığının gənc nəsil üçün örnək ola biləcəyini, yaxın günlərdə onunla şagirdlərin görüşünü keçirəcəklərini bildirdi. Üzünü mənə tutub:

-Cavan oglan, sən də şeir yazırsan. Məncə, şeirlərini Xanəli müəllimə göstərib, məsləhət alsan, pis olmaz, -dedi.

Mən başımla guya onunla razılaşdığımı bildirdim.

Əvvəllər rayon qəzetinin foto-müxbiri işləyən Müseyib təqdimat mərasimini həvəslə videolentin yaddaşına köçürürdü.

Həmin gündən başlayaraq hara gedirdimsə Xanəli kişinin kitabı haqqında eşidirdim.

Düzdür, bəzi agzıgöyçəklər deyirdilər ki, şeirləri Zəbi Bakıdakı şairlərdən hansınasa pulla yazdırıb, Xanəli kişi belə ağıl sahibi deyil. Amma çoxları Xanəli kişinin kitabındakı şeirlərin kiminsə yazdığını heç ağıllarına da gətirmirdilər. Ən maraqlısı o idi ki, nə şair, nə də onun oğlu şeirləri yenidən yazdığıma görə mənə bircə kəlmə də söz demədilər. Bəlkə də şeirlərinn təzədən yazıldığını heç başa da düşmədilər.

Bir gün televizora baxırdım. Diktor qız elan etdi:

-Sizə təqdim etdiyimiz, hər birimizin qəlbini riqqətə gətirən bu mahnının sözləri istedadlı şair Xanəli Uğurluya məxsusdur.

**2001-ci il**

## Baş infeksionist: "Yaşlı insanlarda peyvənd təsirli olmaya bilər"




**COVID-19 virusuna qarşı yaradılan peyvənd vasitəsilə orqanizmdə süni immunitet formalaşdırılır. Amma yaşlı və xroniki xəstəliyi olan şəxslərdə bu peyvənd o qədər də təsirli olmaya bilər.**

Azvision.az xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov deyib. Onun sözlərinə görə, peyvəndlər xəstəliklərdən qorunmaqda kifayət qədər səmərəli vasitə sayılır. "Koronavirus əleyhinə istehsal edilən peyvəndlərin üçüncü klinik mərhələsinin ilkin nəticələri açıqlanıb və müəyyən qədər təhlil olunub. İstehsalçıların dediyinə görə, peyvəndlərin səmərəsi 90 faiz üzərindədir. Onun tətbiq olunması infeksiyanın üzərində müəyyən qədər dönüşə nail olmağa imkan verəcək. Peyvəndin təkcə sağlam insanlar üzərində deyil, müəyyən yaş qruplarında və xəstəliyi olanlarda da sınağı keçirilib".

Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 145 (2179) 24 dekabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# 1987-1992-ci illərdə Azərbaycanın Dağlıq Qarabağ regionunda nələr baş verirdi?!

## (Bizim çoxlarımızın bilmədiyimiz həqiqətlər... Xankəndi)

**(əvvəli ötən saylarımızda)**

***Haşiyə:***

Niyaz Hacıyevin müsahibəsindən görünür ki, Ə.Vəzirovun Dağlıq Qarabağ hadisələrini törədən separatçılarla görüşü komsomola qəbul iclasına oxşayırmış.

Niyaz Hacıyev deyir ki, əvvəlcə H.Poqosyan, sonra Z.Movsesyan çıxış etdilər. Z.Movsesyan dedi ki, yoldaş Vəzirov, sizdən bir xahişim var:

Şuşanın polisi bizə imkan vermir ki, Ermənistanla gediş-gəliş olsun. Yolda şlaqbaum qoyublar, bizi yoxlayırlar. Biz Ermənistanla müştərək müəssisələr (?) yaratmaq istəyirik, bizi bundan məhrum ediblər. Siz bizə imkan və şərait yaratsanız biz də Stepanakert erməniləri adından söz veririk ki, heç bir mitinq olmayacaq.

**Ə.Vəzirov dedi:** "Baş üstə! Tez dəstəyi qaldırıb zəng vurdu Qosplana: "sabahdan müştərək müəssisələrin yaradılmasına heç bir maneçilik olmasın!" - Zəng vurdu daxili işlər nazirliyinə: "Sluşi, sən orda Ələmdardır, bilmirəm kimdir, ona tapşır ki, ordan şlaqbaunu götürsün. Əgər orda bir erməni yoxlanılsa, onda sənin vay halına!"

Movsesyan ayağa qalxıb dedi ki, mən də sizə söz verirəm ki, sabahdan bir erməni mitinqə çıxmayacaq".

Əsgəranın katibi Qirqoryan dedi ki, yoldaş Vəzirov, bizim də bir qədər ağır işlərimiz var. Bunları həyata keçirmək üçün 3-4 dənə iri yapon traktoru lazımdır, bu traktorlar qaz idarəsində olur. Onları bizə versəniz, bütün işlərimiz düzələr və biz bütün o ağır işləri görərik. Mən əsgəranlılar adından söz verirəm ki, heç bir mitinq olmayacaq".

Vəzirov tez durub zəng vurdu Qaz nazirliyinə. Kiməsə tapşırdı ki, sabahdan Əsgəran rayonuna 3-4 ədəd təzə əvəzsiz olaraq iri traktor verilsin, həm də yanacaqla təmin olsun! Lazım gələrsə, pulunu mən respublika büdcəsindən ödəyəcəyəm". Sən - demə ermənilər bu yapon traktorları ilə yeni yollar çəkəcəkmişlər və tank düzəldəcəkmişlər. Aldılar və traktorların yanlarına qalın dəmir qaynaq edib tank düzəltdilər. Topları ora-bura bu traktorlarla daşıdılar. Əbdürrəhman Vəzirov Əsgəranın katibi Qriqoryanın da xahişini yerinə yetirdi...

Hadrutun katibi dedi ki, Stepanakertə bizim dağ yolu ilə meşənin içindən bir piyada yolumuz var. Xahiş edirəm, icazə verin biz o meşəni doğrayıb dağ yolu ilə Hadrutdan Xankəndinə (Stepanakertə) kəsə yol açaq. Bu yol Salakətin kəndinin üstündən keçəcəkdir.

**Ə.Vəzirov dedi:** "Baş üstə!"

Niyaz müəllim qeyd edir ki, Salakətin həm Vəzirovun, həm də mənim kəndimin üstündə yerləşir. Vəzirov Düdükçü kəndindəndir.

Durdu Respublika Təbiəti Mühafizə Komitəsinə, Meşə İdarəsinə zəng vurdu. Tapşırdı ki, heç bir müqavimət olmasın! Sabahdan meşəni doğrayacaqlar, ordan yeni yol çəkiləcək.

Hətta yol idarəsinə də tapşırdı ki, ora köməklik edin!"

***Haşiyə:***

"Yeri gəlmişkən qeyd edək ki, "Krunk" təşkilatının əsas liderləri, Dağlıq Qarabağ hadisələrini törədənlər öz ayaqları ilə Ə.Vəzirovun hüzuruna gəlib çıxmışdılar. Ə.Vəzirov onların kimliyini dərk edə bilmirdi".

Həmin vaxtlarda ermənilər Şuşa rayonunun Onvers, Qaladərəsi, Çiçəkli, Malıbəyli, Quşçular, Zarıslı, Qaybalı, Xəlifəli və Göytala kəndlərindəki məktəbləri tez-tez yandırıb kənd camaatın, müəllim və şagirdləri güllə atəşinə tutmuşdular. Xəbəri eşidən kimi dərhal Şuşa rayon Daxili İşlər Şöbəsinin əməkdaşları: polis mayoru Vahid Bayramov, polis polkovniki Sadir Məmmədov, polis mayoru Zülfü Əhmədov, mən və digər bir neçə nəfər hadisə yerinə Onvers kəndinə getdik. Kənddə bizi Ermənistandan zorla qovulmuş, Şuşaya pənah gətirmiş Onvers kəndində müəllim təyin etdiyimiz Ədalət Şadmanov, Kərəm İmanov, Cümşüd Rəhimov və Surəddin (onun soyadını unutmuşam) qarşıladılar.



***Haşiyə:***

1983-1989-cu illərdə Şuşa RXTŞ-nin məktəblər üzrə "baş inspektoru", 1990-1992-ci illərdə RXTŞ-nin müdiri vəzifəsində işləmişəm.

Həmin çətin vaxtlarda həm Qərbi Azərbaycandan, həm Dağlıq Qarabağdakı Azərbaycan məktəblərindən, həm də Xankəndindən Nizami Gəncəvi adına şəhər 4 nömrəli orta məktəbdən Şuşa şəhərinə pənah gətirmiş müəllimlərin yerləşdirilməsi, işlə təmin olunması, əməkhaqlarını vaxtında ala bilmələri, şagirdlərin dərslərə davamiyyəti əsasən Şuşa RXTŞ-nin üzərimə düşmüşdür. Yəqin ki, həmin faktlar nə müəllimlər, nə valideynlər, nə şagirdlər, nə də camaat tərəfindən unudulmayıbdır. Yuxarıda qeyd etdiyimiz kimi, Onvers kəndinə çatanda gördük ki, Şuşa-Laçın yolunun ortasında (məktəbdən 20-30 metr aşağıda) tankın yanında əli silahlı rus əsgərləri və kənddəki saqqallı ermənilər dayanmışdılar.

Tankın üstündə isə Etmənistanın və Rusiyanın bayraqları vardı. Biz onlardan bu özbaşınalıqlara kimin icazə verdiyini soruşanda dedilər: "Bunu bizə Xankəndindən - "Xüsusi Təşkilat Komitəsi"ndən tapşırıblar!"

Bizim kəndə gəlişimizi eşidən kimi azərbaycanlılara qarşı təxribatla məşğul olan, qatı millətçi qoca daşnak - Onvers məktəbinin keçmiş direktoru (80 yaşı keçmişdi) Petrosyan Mayor, sovet sədri Z. Zaxaryan bir neçə nəfərlə əllərində tüfəng, balta və dəmir armatur parçası ilə üstümüzə hücum etdilər. Onu da deyək ki, Qaladərəsi, Onvers, Göytala və Çiçəkli kəndlərindəki məktəblərdə əsasən azərbaycanlı uşaqlar təhsil alırdılar. Həmin məktəblərdə 2-3 erməni uşağı da təhsil alırdı. Onvers məktəbinin direktoru P.Mayorun yerinə Qərbi Azərbaycandan qovulmuş ali təhsilli riyaziyyat müəllimi Ədalət Şadmanov direktor təyin olunmuşdu. P.Mayor bizə yaxınlaşanda yarı erməncə, yarı azərbaycanca bağıra-bağıra bildirdi ki, Onvers məktəbinin həyətində Ermənistanın peşə məktəbinin filialı üçün yeni bina, Ermənistanın Kanager alüminium zavodu və kooperativçiləri üçün yaşayış evləri tikirik. Mən Mayora dedim: "Sənə ayıb olsun! Əsrlərlə Azərbaycanın çörəyin yemisiniz, bizim torpağımızda yaşamısınız. Tutduğunuz əməldən utanırsınızmı?"

**Mayor dedi:** "Ara, biz musurmanlarla dədə-babadan duşmanık (o, müsəlman və düşmənik sözlərin belə tələffüz edirdi). Sizinlə bizimki tutmaz. Çıxın buran gedin!" P.Mayorun fikrincə, guya, yaşadıqları kənd və məktəb Ermənistanın tabeçiliyinə keçmişdi.

Fəhlələr məktəbin inventarların, soyuducunu, stol-stulları, "Krım" markalı televizoru daşıyıb tankın yanındakı erməni evinə yığışmışdılar. Əşyaları onlardan ala bilmədik.

Səməd Vurğunun şəklini məktəbin qapısının üstündən qoparıb yolun içinə atmışdılar. Onun yerinə daşnak A.Mikoyanın şəklini asmışdılar. Mən S.Vurğunun şəklini yerdən götürüb yenidən öz yerinə asdım. Mikoyanın şəklini isə götürüb Mayora verib dedim: "apar evinizə, çarpayının arxasından as, nə qədər istəyirsən ona bax!.." Məktəbin həyətində peşə məktəbinin bünövrəsin qoyan ermənilər həqiqətən Ermənistandan gəlmişdilər. Birtəhər onları məktəbin həyətindən uzaqlaşdırdıq. Lakin Şuşa-Laçın yolunu bağlamış əsgərlər və yanlarındakı saqqallı ermənilər bizim üstümüzə silah çəkdilər. Özümüzlə apardığımız qıfılı məktəbin qapısına vursaq da fəhlələr əllərindəki dəmir linglə dərhal qıfılı və S.Vurğunun şəklini qoparıb yenidən həyətə atdılar. Mən S.Vurğunun şəklini Şuşaya - evimizə gətirdim. Kəndin uşaqların camaatla birlikdə birtəhər Onversdən yuxarıdakı - Göytala kəndinə, təhlükəsiz yerə apardıq. Orda uşaqlara yeni siniflər təşkil etdik. Həmin vaxt Göytala kəndinin bütün sakinləri, o cümlədən Cəlal və Camal qardaşları, kənddə mağaza işlədən Sabir Quliyev (hazırda Şuşa RİH-nin Göytala kəndi üzrə nümayəndəsidir) bizə kömək etdilər. Lakin bir neçə gündən sonra ermənilər bu məktəbi də yaxınlıqdakı tankın mərmisi ilə vurub yandırdılar... O vaxtlardan 30 ilə yaxın vaxt keçsə də gördüyüm mənzərələri unuda bilmirəm:

*Dağlara göz gəzdirib baxmağa utanıram,*
*Əsir kəndlər, şəhərlər xarabanı andırır.*
*Dünyanın işinə bax: Qazan xanın yurdunda*
*Sığınacaq axtaran erməni şam yandırır.*
*Bəs, necə deyim sənə: məni bağışla, Vətən?!*

Beləliklə, bu kiçik yazıda çar Rusiyasının əli ilə 1828-1830-cu illərdə Azərbaycanın tarixi ərazisinə - Dağlıq Qarabağa köçürülüb gətirilmiş yadelli ermənilərin kimliyini, onların hansı əqidəyə sahib olduqlarını, kimlərə arxalandıqlarını az da olsa öyrənə bildik...

**Gələcək yazılarımızı 1988-1992-ci illərdə Şuşada baş vermiş hadisələrlə davam etdirəcəyik.**

***Əyyub Şırlanlı,***
***şair-publisist, əməkdar müəllim,***
***AYB-nin üzvü, müharibə və***
***əmək veteranı***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

---

*Qurban Məhərrəmoğlu*

## Dünya alqış deyir bu həqiqətə

*Sən öndər oğlusan, ey böyük rəhbər,*
*Arzular, ümüdlər getmədi hədər,*
*Vətənin yolunda, göstərdin hünər,*
*Sən ilham verirsən, xalqa, millətə*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Hünər meydanıdır, bütün yer üzü,*
*Çəkir imtahana bu döyüş bizi,*
*Bizə yollar açır, cığırlar izi,*
*Sən inam gətirdin, xalqa, millətə*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Daşnaqlar eşitsin, anlasın bunu,*
*Susdura bilməzlər Heydər oğlunu,*
*Bir zaman bitəcək, düşmənin sonu,*
*Sən böyük dayaqsan, xalqa, millətə*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Bizimlə birlikdə döyüşür zaman,*
*Azğın yağılara verməzik aman,*
*Gələcək nəsillər, dərs alsın bundan,*
*Qoy tarix danışsın xalqa, millətə*
*Dünya alqış deyir, bu həqiqətə.*

*El gücü, sel gücü vardı vətəndə,*
*Azğın düşmənləri salmışıq bəndə,*
*Dağları sındırrıq yeri gələndə,*
*Vətən arxalanır, xalqa, millətə*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Vətən oğulları, gedir irəli,*
*Onlar dağ vüqarlı, şir tək hünərli,*
*Keçirlər inamla dağı, dərəni*
*Bir örnək olublar, xalqa, millətə*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Daşnaqlar çətində düşür qaçağa,*
*Leş- leşin üsdündə qalanır dağa,*
*Dünya lənət deyir, daşnaq alçağa,*
*Ordumuz düşməni, salıb heyrətə*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Daşnağa arxadır, terror dünyası,*
*Töküküb onların, abrı-həyası.*
*Qan tökmək, onların olub mayası,*
*Ordumuz onları, salıb zillətə*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Terrodan daşnaqdan, yoxdu qorxumuz,*
*Düşməni lərzəyə salıb topumuz,*
*Sədləri fəth edir, bizim ordumuz,*
*Ordumuz dünyanı salıb heyrətə.*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Artıq əlimizdə, qarlı Murov dağ,*
*Qoymarıq düşmənlər, burda qalsın sağ.*
*Aparır əlində, əsgər bir bayraq*
*Zəfər bayrağıdır, o gedir öndə,*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Düşmənlər dözəmmir, edirlər fəryaq,*
*Kəsilib onlarda, bütün qol-qanad,*
*Ana torpağımız, olubdu azad.*
*Ordumuz layiqdi, bu şucayətə*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Döyüşdə düşmənə verməzik aman,*
*Başların üsdünü, alıbdı duman,*
*Qələbə bizimdir, eşitsin zaman.*
*Ordumuz düşməni, salıb heyrətə*
*Dünya alqış deyir, bu həqiqətə.*

*Hər gün qələbəylə, açılır səhər,*
*İşğalçı düşmənə, çalırıq zəfər,*
*Yayılır dünyaya, sanki xoş xəbər.*
*Gedirik irəli, xoş səadətə.*
*Dünya alqış deyir, bu dəqiqətə.*

## Qarabağ Azərbaycandır

*Ali baş komandan verəndə əmri,*
*Vulkan tək püskürdü, bizim ordumuz.*
*Topların səsindən yer-göy titrədi,*
*Haqqa doğru getdi, bizim yolumuz.*

*Düşmənlər anladı, türkün qüdrətin,*
*Sıçan tək, yuvaya girdi Pişikyan.*
*Nifrətin qazandı bütün millətin,*
*Matəmə çevrildi bütün İravan.*

*Dağları titrətdi topların səsi,*
*Toplara səs verdi dağ da, aran da.*
*Dağıldı onların döyüş mərkəzi,*
*Azğın ermənilər susdu bir anda.*

*Qara xəbər getdi, o hayıstana,*
*Onlar başdan-başa, geydilər qara,*
*Adları qeyd oldu, qara dastana,*
*Daha köməkləri gəlmədi kara.*

*Ucaldı Şuşada, zəfər bayrağı,*
*Güldü cıdır düzü, güldü Qarabağ.*
*Erməni qəlbinə biz çəkdik dağı,*
*Çətin ki, sağala çəkdiyimiz dağ.*

*Ocağın söndürdük Hayıstanların,*
*Batdı xəyallarda çıxan günəşi.*
*Axıtdıq torpağa murdar qanların,*
*Dağlardan kəsildi, gediş gəlişi.*

*Qarabağ bizimdir, Azərbaycandır!*
*Ora göz tikənlər baş qoyub gedər.*
*Qarabağ cismimdə döyünən candır.*
*Burda qərar tutmaz, gəldi gedənlər*

*İnamla irəli getdi ordumuz,*
*Düşmənlər üstünə min zəfər çaldıq.*
*Qurtuldu işğaldan ana yurdumuz,*
*Bütün şəhidlərin qisasın aldıq.*

*Düşmən təslim oldu, yazıldı qərar,*
*Ona qol çəkdilər hər bir tərəflər.*
*Tarixdə yerini tutdu bu faktlar,*
*İlhamla bağlandı, bütün tələblər.*

*Ulu Heydərimin var davamçısı,*
*O böyük şəxsiyyət, o böyük rəhbər.*
*Düşməni ram etdi, onun qamçısı,*
*Çəkdiyi zəhmətlər getmədi hədər.*

*Naxçıvan,*
*Şərur rayonu, Tumaslı kəndi*

---

## Naxçıvan-İran sərnişin qatarı yenidən fəaliyyətə başlaya bilər

**Naxçıvan Muxtar Respublikası ilə İran arasında sərnişin qatarının tezliklə yenidən fəaliyyətə başlaması ilə bağlı müzakirə aparılır.**

Trend-in məlumatına görə, bunu İranın yol və şəhərsalma naziri Məhəmməd Eslami İranın şimal-qərbində Şərqi Azərbaycan vilayətində Təbriz-Səhənd avtomagistral yolunun istismara verilməsi ilə əlaqədar tədbirdə deyib. M.Eslaminin sözlərinə görə, İran və Naxçıvan arasında dəmiryol xətti böyük əhəmiyyət kəsb edir. O, əlavə edib ki, Təbriz dəmiryolu xətti Avropa və Şimali Qafqazla əlaqə qurmaq üçün çox münasib yoldur: "Son vaxtlar bununla əlaqədar İran, Azərbaycan və Rusiya arasında üçtərəfli anlaşma əldə olunub".

Qeyd edək ki, Naxçıvan-İran sərnişin qatarları koronavirusla əlaqədar fəaliyyətini dayandırıb.

---

*Vətəndən uzaqlarda*

## SEVDA VƏ NƏRGİZ BACILARININ UĞURLARI

**Azərbaycan diasporunun təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibətilə Rusiyanın Veliki Novqorod şəhərində maraqlı tədbir keçirilmişdir. Məktəblilərin də iştirak etdiyi tədbirdə həmyerlimiz Sevda Anar qızı Əhədova şeir müsabiqəsinin qalibi olmuşdur. "Azərbaycan" şeirinə görə ona təşəkkürnamə və qiymətli hədiyyə verilmişdir.**



Əslən Lənkəran şəhərindən olan Sevda Əhədova Veliki Novqorod şəhər orta məktəbinin VII sinfində oxuyur, nadir istedada malikdir. Rəsm çəkməyi, mahnı oxumağı xoşlayır. Onun həm də gözəl əl qabiliyyəti vardır, təsviri incəsənətlə məşğuldur. Parçalar üzərində müxtəlif naxışlar açır, rəngbərəng saplarla tikmələr hazırlayır.

Sevda çalışqan qızdır. Məktəb bədii özfəaliyyət kollektivinin üzvüdür. Gözəl, məlahətli səsə malikdir. Azərbaycan dilində çoxlu mahnı və şeirlər bilir. Bir qayda olaraq məktəbdəki xor kollektivinin solo hissəsini oxumaq Sevdaya etibar edilir.

O, birinci sinifdən indiyədək bütün fənlərdən əla qiymətlər almışdır. Məktəbin müəllim və şagird kollektivi onunla fəxr edir. Təhsil aldığı məktəbin fəal və ictimaiyyətçi şagirdlərindəndir. Fotoşəkli birinci sinifdən məktəbin Şərəf lövhəsindən düşmür. Maraqlıdır ki, Sevda Əhədova bir neçə ildir ki, Azərbaycan diasporunun uşaqlar arasında keçirdiyi rəsm müsabiqəsinin qalibi olur. Bu dəfə "Məscid" rəsminə görə təşəkkürnamə və hədiyyə ilə mükafatlandırılmışdır. Böyük bacısı, IX sinif şagirdi Nərgiz Əhədova isə portret janrda çəkdiyi rəsminə görə təşəkkürnamə ilə təltif olunmuşdur. Sevda və Nərgiz Əhədova bacıları həm də bədii ədəbiyyat oxumağı xoşlayırlar. Onlar Azərbaycan həqiqətlərinin yaşıdları arasında yayılması üçün əllindən gələni əsirgəmirlər.

Bacılar Bakıda keçirilən Zəfər paradına televiziyadan baxdıqlarını və Vətən müharibəsində müzəffər Azərbaycan ordusunun qələbəsindən qürur hissi keçirdiklərini bildirirlər.

**Ataları Anar Etibar oğlu Əhədov Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını, anaları Günay Ramiz qızı Ağayeva Azərbaycan Tibb Universitetini bitirmişlər. Günay xanım Veliki Novqorod şəhər uşaq xəstəxanasının şöbə müdiridir. Anar Lənkəran uşaq rəssamlıq məktəbinin ilk məzunu olmuş, Azərbaycan televiziyasının elan etdiyi uşaq rəsmləri müsabiqəsinin qalibi olmuşdur.**

**Ağaddin BABAYEV**

---

**Bu şeri əmim Hacı Hümbət həkimin ölümünə həsr edirəm və bu yazımla el ağsaqqalının əzizlərinə, onu sevənlərə, sadiq dostlarına başsağlığı verməklə öz qəmli hisslərimi nəzmə çəkib çap etdirməyi özümə mənəvi borc bildim.**

## Allah sənə rəhmət etsin, ay əmi

**Ağsaqqalı oldun sən Qarabağın**
**Şəfaqətli, şərafətli yaşadın**
**Baş ayağı bilinməyən bu xalqın**
**Ürəyində dərdin, qəmin daşıdın**

**Varlıya, kasıba qoymazdın fərqi**
**Sən Allah eşqinə, çəkərdin dərdi**
**Ona görə bu el səni sevərdi**
**Tarixlərdə sən əbədi yaşadın**

**Məkkəmin yolunda vüsala yetdin**
**Xalqıma qırx illik bir xidmət etdin**
**Əsl hacı kimi dünyadan getdin**
**Mərd yaşayıb, mərd ölməyi bacardın**
**Fəqir könüllərin oldun məlhəmi**
**Allah sənə rəhmət etsin, ay əmi!**

**Hafiz Bəşiroğlu,**
**Bərdə rayonu**

---

## Yeni il

*Hamı təzəcə qədəm qoyacağımız Yeni ili qarşılayırdı. Üzlərdə sevinc, təbəssüm, ürəklərdə inam, işıq Yeni ilin görüşünə tələsirdilər. Hələ görmədikləri, yaşamadıqları, tanımadıqları Yeni ilin...*

*Yeni il gəldi. Ömürlərdə yeni bir səhifə açaraq, arzu və istəklərimizi pöhrələndirəcək il.*

*Hamı ötən, köhnə ili unutmuşdu. Sanki o bir il bizimlə, ömrümüzlə yanaşı addımlamamışdı. Köhnə il inciyərək bir küncə qısılıb, səssiz-səmirsiz, gizlincə, qibtə ilə ətrafı seyr edir, gedəcəyi üzücü anı gözləyirdi. O artıq köhnə adı alıb, tarixə düşmüşdü.*

*Köhnə ilin bizdən inciyib, küsməyə haqqı var idi. Biz onu bütövlüklə yaşayıb bir anda, bir göz qırpımında heç "sağ ol" da demədən unudub, ona arxa çevirdik... Doğrudanmı insanın yaddaşı bəzən bu qədər etibarsız, vəfasız olur?! Dünənədək bizimlə sevincini, kədərini yarı bölüb, dərdimizə şərik olan, yaman günümüzə yanan, alovlanan bir ili sanki tanımırdıq. Bir anda nədənsə, o bizə özgə, yad oldu. Uzaqlaşdı, uzaqlaşdırdıq onu... Ömrümüzün bir səhifəsi, bir ilinin nə idi günahı?! Onsuz da qısa, cəmi bir il olan ömrünü bizimlə bərabər yaşamağımı? Niyə onu başlanandan sona qədər yaşayıb, sonra biganəliklə qapı açıqdır, çıx get deyirik... Axı o artıq bizimdir, bizimkidir. Onu yaşadıq, kim olduğunu tanıdıq, bildik. Ağrısı, acısı, sevinci, kədəri ilə bizimlə, bizim olan ilin günahı nə idi?! Niyə onu yaşayan kimi, köhnə adı veririk... Cəmi bir il öncə Yeni olan köhnə ili. Biz Yeni ili qarşılamazdan əvvəl olmazmı, köhnə dediyimiz ili bağrımıza basıb, sağollaşaq. Ona yaxşı yol diləyək, arxasınca su çiləyək. Və sonra Yeni ilə xoş gəldin deyək. Axı Yeni il də cəmi bir ildən sonra köhnələcək, bizi tərk edəcək...*

*Bir də, Yeni il bizim olacaqsa, köhnə il düz bir ildir ki, bizimdir. Hər ikisini eyni qayğı ilə sevmək insani borcumuzdur. Sevməyin nəyi pisdir ki?! Başqa vaxt hər şeyin təzəsi, dostun köhnəsi deyirik. Elə isə köhnələn, bizimlə dostlaşan, doğmalaşan ildən niyə belə tez doyduq, üz döndərdik. Ona dönük çıxdıq. Ömrümüzdən, günümüzdən özümüzü uzaq saldıq. Yaşadığımız köhnə ilin bizdən küsməyə haqqı var. Özü də çox:*

*Hamı*
*Yeni ili*
*Təbrik edirdi.*
*Köhnə il baxıb,*
*kədərdlə*
*Saçlarını didirdi...*

*Adil MİSİRLİ,*
*Ağcabədi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNƏ

**Əziz həmkarlarımız, məsləkdaşlarımız!**

**2020-ci il ölkəmizin tarixində acılı-şirinli izlərlə yadda qalacaq. Bəşəriyyətə meydan oxuyan koronavirus (Covid-19) pandemiyası həyatımızın bütün sahələrində olduğu kimi idmanda da ağlasığmaz məhdudiyyətlərə səbəb olub. Bununla belə, ara-sıra milli və beynəlxalq yarışlar keçirilmiş, onlayn görüşlər, konfranslar təşkil edilmişdir. Mediamız ölkə, qitə və dünya miqyasındakı bu olaylara seyrçi qalmamış, idman həvəskarlarını intizarda saxlamamış, ölkə və dünya Olimpiya hərəkatı və idmanının pandemiya dövründə vəziyyəti, baş verən mühüm hadisələr barədə maraqlı çıxışlara geniş yer vermişdir. Elə müstəqil idman yazarlarımız da var ki, onlar saytlar, sosial media üzərindən daha çox faydalı informasiyalar paylaşaraq bu sahədə boşluğu doldurmağa çalışırlar.**

2020 Azərbaycan üçün 44 günlük Vətən müharibəsində şanlı qələbəmiz, 30 ilə yaxın erməni işğalında olan doğma Qarabağ torpaqlarımızın azad edilməsi ilə olduqca əlamətdardır və ölkəmizin şanlı tarixinə qızıl hərflərlə yazılmışdır. Bu böyük qələbədə jurnalistlərimizin, digər yaradıcı insanların, o cümlədən idman yazarlarımızın da xüsusi rolu olmuşdur. Odur ki, Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının (AİPS) və İdman Mətbuatı üzrə Avropa İttifaqının (AİPS EUROPE-UEPS)üzvü və Azərbaycanda rəsmi təmsilçisi Azərbaycan İdman Jurnalistləri Assosiasiyası25 yaşının tamam olduğu yubileyi ilində ənənəvi qalib nominasiyalarını həmişəkindən fərqli təqdim edir.

***VƏTƏN MÜHARİBƏSİNDƏ ÖN CƏBHƏDƏ ŞÜCAƏT GÖSTƏRMİŞ İDMAN MEDİASI ƏMƏKDAŞLARI***

**Süleyman Vəliyev - CBC SPORT**
**Xəyal Sadıqov - CBC SPORT**
**Mehman Əşrəfov - sportal.az**
**Daşqın Əziz - offsideplus.az**
**Mahal Məmmədov Azərbaycan Futzal Federasiyasının mətbuat katibi**
**Vüsal Qurbanov - ATV**
**Emin Səfərov - qafqazinfo.az**

***VƏTƏN UĞRUNDA CANINI FƏDA ETMİŞ BÜTÜN ŞƏHİDLƏRİMİZİN RUHUNA DƏRİN EHTİRAMLA***

**şəhid Ülvi Məmmədovun atası, komanda.az saytının yazarı Vüqar Məmmədov xüsusi diplomla təltif edilir**

***2020-Cİ İLİN İDMAN LAUREATLARI***

***İLİN İDMAN JURNALİSTİ***
**Anar İsgəndərov (Şəbanoğlu) Müstəqil jurnalist**

***İLİN İDMAN TELEJURNALİSTİ***
**İlkin Xəlilov (Fikrətoğlu) ATV**

***İLİN TELEAPARICISI***
**Əminə Kazımova CBC SPORT**

***İLİN TELEŞƏRHÇİSİ***
**Rüstəm Əfsərli CBC SPORT**

***İLİN RADİO JURNALİSTİ***
**İlkin Baba Azərbaycan Radiosu**

***İLİN MƏTBUAT KATİBİ***
**Elmar Abdullazadə - "Zirə" Futbol Klubu**

***İLİN İDMAN FOTOREPORTYORU***
**Rüstəm Fərman İsmayılov - azpress.az**

***İLİN İDMAN İNFORMASİYA AGENTLİYİ***
**Azərbaycan Dövlət İnformasiya Agentliyi - AzərTAC**

***İLİN İDMAN TELEKANALI* - İTV**

***İLİN İDMAN RADİOSU* - *Azərbaycan Radiosu***

***İLİN İDMAN QƏZETİ***
**"Futbol+"**

***İLİN İDMAN SAYTI***
**qol.az**

***İLİN İDMAN KİTABI***
**"Şuşali laynsman Tofiq Bəhramov", Müəllif Əbülqasım Novruzov, Bakı - 2020, "Avropa" Nəşriyyatı**

***İLİN İDMAN XADİMİ***
**Fariz Nəcəfov - "Qəbələ" Futbol Klubunun prezidenti, Vətən müharibəsinin könüllü iştirakçısı**

***İLİN İDMANÇISI***
***(qadınlar)***
**1. İrina Kindzerska - cüdo Avropa çempionatı, gümüş medal**
**2. Zöhrə Ağamirova - bədii gimnast, Avropa çempionatının finalçısı**
**3. İrina Zaretska - karate, Beynəlxalq turnirin qalibi**

***(kişilər)***
**1. Orxan Səfərov - cüdo Avropa çempionu**
**2. TayfurƏliyev - boks Olimpiadaya lisenziya qazanıb**
**3. İslambek Dodo - güləş Fərdi Dünya Kuboku, gümüş medal**

***İLİN KOMANDASI***
**Bədii gimnastika üzrə milli komanda- Avropa çempionatı, gümüş medal**

***İLİN MƏŞQÇİSİ***
**Mariana Vasilyeva - Bədii gimnastika, millinin baş məşqçisi**

***İLİN İDMAN QURĞUSU***
**Türkiyənin Başakşəhər Fatih Terim stadionu (Turkiye: Başakşehir FatihTerim Stadyumu)**

***Qalibləri təbrik edir, fəaliyyətlərində davamlı uğurlar arzulayırıq!***

**Eldar İsmayılov**
**AİJA prezidenti,**
**Azərbaycan Respublikasının**
**Əməkdar Jurnalisti**

# "Dövlətin qanunlarına əməl edin, maska taxın!"

## Jurnalistdən aşıq Namiqə cavab

**"Adi bir adam öləndə o qədər adam yığılır. Bu boyda böyük sənətkarın dəfnində biri gəlib iştirak etmədi. Siz ölməyəcəksiniz, siz də öləcəksiniz də. Jurnalistlər, media işçiləri, TV işçiləri niyə gəlib işıqlandırmırsınız? Adi bir adam ölüb? Bu boyda Türk dünyasının sevimli sənətkarı Sabir Əliyev ölüb. Hər kəsin sevdiyi bir sənətkar. Niyə yoxsunuz? Nədən qorxursunuz? Kim nə edəcək sizə? SMS icazə var da. Gəlin, yaxın qohum, dost-tanış..."**





Ötən gün bu sözləri aşıq Namiq Fərhadoğlu Xalq artisti Sabir Əliyevin dəfn mərasimində iştirak edərkən deyib. Jurnalitslərə, insanlara qarşı aqressiv münasibət sərgiləyən aşığa qısa bir xatırlatma etməzdən öncə demək istəyirəm ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən açıq havada maska taxılmalıdır. Biz, jurnalistlərə ünvanladığınız suala cavab verməzdən əvvəl özümə borc bildim ki, sizin özünüzə sualla müraciət edim, niyə açıq havada maskanız çənənizdədir? Dəfələrlə rəsmi nümayəndələr çıxışlarında qeyd ediblər ki, maska çənə üçün deyil, ağız-burun üçündür. Müraciətinizin əvvəlində deyirsiniz ki, adi bir adam öləndə o qədər adam yığılır. İnsanları nəyin əsasında bölürsünüz, açığı anlamadım. Ölüm haqqdır, hər kəsin bacasından çıxacaq. Amma adi, qeyri-adi insan kateqoriyalarına bölməklə siz nə demək istəyirsiniz? Şəxsən mənim fikrimcə, ölüm elə bir şeydir ki, orada hər kəs bərabərləşir. Niyə siz insanları məhz bu yöndə qeyri-adi, adi olmaqla iki yerə böldünüz? Etməyin, eləməyin! Yanlış yoldasınız!

İndi keçid alım sizin sualınızın cavabına: "Namiq Fərhadoğlu, səhv etmirəmsə, üç həftə bundan öncə 18-ci Polis Bölməsinin rəisini ittiham edirdiniz ki, guya sizinlə qanunsuz davranıb. Nəsə, məsələni mən bilmirəm, kim kimə qarşı qanunsuz davranıb. Bir şeyi bilirəm ki, mənim polisim mənim müdafiə sığınacağımdır və insan haqqlarının qorunması üçün də hər zaman əlindən gələni əsirgəməyib. Hazırda etdiyiniz çağırışın özü qanunların, qərarların pozulması üçün zəmin rolunu oynayır. Burada bir mötərizə açıb "zəmin" sözünün mənasını da anladım, yəni əsas yaradır. Siz ki, aşıqlıqdan dolayısı ilə həm də TV aparıcısısınız, Operativ Qərargahın verdiyi bütün qərarlardan xəbərdarsınız. Ölkə ərazisində sərt karantin qaydalarının hökm sürdüyü bir dövrdə insanlara belə səslənməyə nə ehtiyac var?! Zənnimcə, yersizdir, lüzumsuzdur!

**Fikirlərimə yekun vurub qısacası sizin özünüzə səslənirəm, açıq havada maska taxın, Dövlətin qanunlarına əməl edin!"**

**Rövşən Tahir**

# Kamilə Nəbiyeva: "Qadağalara görə nişanımı qaytardım"

*"Verilən vədlər, sözlər tutulmayanda insan həyatda yaşaya bilməz. İnanırsan, güvənirsən, kimsə sənə vəd verir, söz verir və onun dəyişdiyini görürsənsə, bununla belə özünü bilə-bilə oda atırsansa, gedirsənsə, deməli, sən özünü yandırırsan. Amma mən çəkildim. Nişanımı qaytardım. İstəməzdim, bu barədə danışım. Sənətlə bağlı qadağalarım, ətrafımla bağlı qadağalarım məni ondan uzaqlaşdırdı. Bilirsiniz, sənətimlə bağlı qadağaları qəbul edə bilmərəm. Biz sənət insanları, səhnə insanları əli-qolu bağlı yaşaya bilmərik. Başa düşürsünüz? Elə yaşasaydıq, bu sənəti seçməzdik". "Ədalət" qəzetinin qonağı gənc xanəndə Kamilə Nəbiyevadır.*

**-Hər vaxtınız xeyir olsun, Kamilə xanım. Çox sağ olun ki, dəvətimi qəbul etdiniz.**

-Siz sağ olun ki, məni dəvət etmisiniz. Bu dəfə də çox gözəl və səmimi söhbətimiz olacaq.

**-Balaca bir qızın böyük bir səsi var. O səsi nə zaman kəşf etdiniz?**

-Çox gözəl sualdır. İlk dəfə atam kəşf etdi ki, mənim səsim var. Oxuyurdum, 6 yaşım olardı, evdə özüm üçün zümzümə edirdim. Atam gördü ki, səsim var. Daha sonra yavaş-yavaş musiqiyə meyil etdim. Atam el şənliklərində iştirak edirdi, onunla mən də gedirdim. Elə 6 yaşım var idi ki, atam bir toyu idarə edirdi el xanəndəsi kimi, həmin toyda məni qaldırıb stulun üstünə qoydular, çünki balaca idim, sonra mikrafonu verdilər ki, oxu. İlk dəfə orada oxudum. Ondan sonra başladı hər şey. Atamla el şənliklərinə, müsabiqələrə, çəkilişlərə getdim. Davamlı şəkildə bunlar oldu. Bir şeyi də qeyd etmək istəyirəm, anamın da üstümdə çox böyük əziyyətləri olub. İlk dəfə "Segah" muğamını anamın səsisin sədaları altında eşitmişəm. Dünya şöhrətli sənətkarımız Zeynəb Xanlarovanın bir mahnısı var idi:

***"Axtarıb gəzirəm sirdaşlarımı,***
***Gəzirəm ömrümün baharı kimi.***
***İstəsən, sevgilim, göz yaşlarımı,***
***Düzərəm, boynuna mirvari kimi".***

Anam bu mahnını "Segah" üstündə tez-tez ifa edirdi. Anam bu mahnını mənə də öyrətmişdi. Beləcə balaca bir qız yavaş-yavaş muğama doğru istiqamətləndi.

***"Allahdan güc almasam, oxuya bilmərəm"***

**-Deməli, Kamilə Nəbiyeva muğama bağlandı və muğama bağlandıqca da Allaha bağlandı. Çünki ötən müsahibəmizdə demişdiniz ki, mən əlimi açıb muğam oxuyuram, əlimi açanda isə sanki Allaha bağlanıram...**

-Bəli, mən onu hiss edirəm, duyuram. Çox sənətkarlarımız var, tənqidi yanaşır ki, Kamilə Nəbiyeva niyə muğam ifa edəndə əllərini açıb oxuyur? Cavab verim, Zeynəb xanım Xanlarova mənə dedi ki, mən səni anlayıram, niyə elə edirsən? Yəqin ki, görmüsünüz, Zeynəb xanımın özü belə əllərini açıb ifa edir. Deyir ki, sən Allahdan eşq almasan, güc almasan, ifa edə bilməzsən. Sən onu hiss edə bilməzsən, ifa edə bilməzsən. Bu, həqiqətən, belədir. Əgər mən səhnədəyəmsə, olduğum kimi olmaq istəyirəm. Kənardan kimsə məni tənqid edər deyə düz dayanım, əlimi oynatmayım, bunlar məndən asılı deyil. Bu süni olar, məncə. Gedib orada oxuyum, qavalımı yanıma qoyum, durum, yox, belə olmaz. Allahdan güc almasam,oxuya bilmərəm.

**-Qalmaqala düşməyən insan yoxdur. Bəlli ki, sizin sənətdə də qalmaqallar olur. Onlarla qarşılaşanda nə edirsiniz?**

-Qaçıram. İnanın ki, hər zaman da qaçmışam. Susmuşam və qaçmışam. Düzünü deyim ki, sənətlə bağlı böyük qalmaqallarım olmayıb. Heç kəs də deyə bilməz ki, Kamilə Nəbiyeva hansısa qalmaqalda var idi. Həmişə başımı aşağı salıb işimlə, gücümlə məşğul olan insan olmuşam. Bütün sənət dostlarım, ətrafımda olan insanlar da bilir ki, mən necə səmimi bir insanam. İşimə, sənətimə can yandıran bir insanam. Mən öz işimlə məşğul olan bir insanam. Hiss etmişəm ki, haradasa qalmaqal var və məni ora çəkmək istəyirlər, uzaqlaşmışam.




***"Mənə qarşı haqsızlıq çox olub"***

**-Sənətdə sizə qarşı ədalətsiz davranan olubmu?**

-Çox qarşılaşmışam ədalətsizliklə. Mənə qarşı haqsızlıq çox olub. Haqqımı yeyiblər.

Məsələn, mənim yerim haradasa olubsa, oranı kimsə özününküləşdirib. Halbuki, mənim haqqımdır orada olmaq. Heç vaxt bu barədə danışmamışam, ilk dəfədir, danışıram. İnandırım sizi ki, susmuşam və onlara hər zaman sənətimlə cavab vermişəm.

**-Haqsızlıq dediniz, toylarınızımı əlinizdən alıblar?**

-Toyları əlimdən alanlar da olub, səhnədən uzaqlaşdırmaq istəyənlər də olub. Zəng vurublar ki, sizi demişdik, siz Azərbaycanda yox idiniz. Söyləmişəm ki, xeyr, axı mən ölkəmdəyəm. Bilirsiniz necə, kimsə yalandan deyib ki, guya mən Azərbaycanda deyiləm. Hətta olub ki, bir nəfər zəng vurub deyib ki, sizin nömrənizi istədim yaxınınızdan, o sizin nömrəni mənə vermədi. Ki, verə bilmərəm. Kamilə xanım deyir ki, mənim nömrəmi heç kimə verməyin. Bu boyda yalan olar?! Mən sənət insanıyam. Mənim nömrəm bu sahədə olanlara lazımdır. Burada nə var axı? Niyə verməməliyəm ki, işimlə bağlı nömrəmi? Nə bilim, yolumu kəsənlər olub.

**-Gənc olmağınıza rəğmən sözünü demiş ifaçılardan sayılırsınız. Və bu gün sizdən sonra gənclər də yetişir. Kamilə xanımın özü həmin muğam ifaçılarına ədalətsiz davranırmı?**

-Qətiyyən. Heç kim deyə bilməz ki, bizdən sonrakı muğam müsabiqələrindən çıxan ifaçılara yuxarıdan aşağı baxmışam. Qətiyyən olmayıb belə bir şey. Olub, özümə qarşı görmüşəm bizdən əvvəlki müsabiqənin iştirakçılarında, amma özüm qəti şəkildə kiməsə qarşı etməmişəm. Əksinə, onların uğuruna sevinmişəm.

Hər zaman özlərinə də yaxşı oxuduqlarını demişəm. Gözəl ifanı görüb onu necə deməmək olar? Necə olar bu? Əgər o ifa mənim içimi tərpədirsə, mən ona necə deməyim ki, o ifanı yaxşı oxumusan?! Bu ədalətsizlik olar.

Odur ki, heç kim deyə bilməz, Kamilə kiməsə paxıllıq edib.

***""Muğamlarımızın gəlini" "Bayatı-Şiraz"dır"***

**-Mövzunu bir az dəyişək, muğamlarımızdan danışaq. Sizin muğamlarımızı necə sevdiyinizi gözəl bilirəm. Muğamlarımızdan hansı sizə daha doğmadır?**

-Bilirsiniz də, 7 əsas muğamımız var. "Muğamlarımızın gəlini" "Bayatı-Şiraz"dır. Hansı ki, mənim ən sevdiyim, sevə-sevə ifa etdiyim bir muğamdır. Hər dəfə ifa edəndə onu dərindən hiss edirəm. "Ürəyin naləsi" "Segah"dır. "Segah" oxuyanda ah, nalə, nisgil, insanın içindəki duyğular oyanır. Keçmişin, fikirlərin yada düşür. Mənə elə təsir edir. "Segah" muğamımız nisgilli muğamdır. Bütün muğamlarımızı sevirəm, amma hər xanəndənin ürəyində birinə məhəbbət olur ki, məndə də bu "Bayatı-Şiraz"adır. Bu muğam mənə 2011-ci ildə böyük uğurlar gətirib. Bəlkə də, bu muğamı ona görə daha çox sevirəm ki, mənə uğur gətirib.

**-Danışırsınız, hiss edirəm ki, ürəyiniz doludur. Karantindir, toylara getmirsiniz, heç evdə məşqləriniz olurmu?**

-Evdə kiçik bir şərait qurmuşam özüm üçün. Mikrafonum, səs aparatım və s. varımdır. Arada ifa edirəm, axı insanın içi qaynayır. İnanırsınız, ürəyim doludur bu dəqiqə. Səhnə üçün o qədər darıxmışam, tamaşaçılar üçün o qədər darıxmışam. Oxuyum, ancaq məni dinləsinlər. İstəyirəm, 5-6 saat vaxt ayırsınlar, ansamblımla oxuyum, məni dinləsinlər.

***"Səhnə üçün çox darıxmışam"***

**-Danışırsınız, gözləriniz dolur...**

-Bəli. Bəzi şeylər mənə pis təsir edir. İllərdir, bu sənətdə əziyyət çəkən insanlar var ki, onlar evlərində oturub heç nə edə bilmirlər. Ürək buna necə dözsün? Tamaşaçılar üçün, səhnə üçün çox darıxmışam. Həddindən artıq darıxmışam. Evdə oxumaqla deyil, daşa-divara oxuyuram. İnsan nə qədər özü üçün oxusa da, tamaşaçıdan aldığı enerjini ala bilmir. Allahdan arzu edirəm ki, tezliklə qara buludlar-koronavirus yox olsun.

**-Bu yaxınlarda nişanlandınız, qadağalar varmı?**

-Bu barədə heç bir yerdə müsahibə verməmişəm. Elə o qadağalara görə nişanımı qaytardım. Bilirsiniz, verilən vədlər, sözlər tutulmayanda insan həyatda yaşaya bilməz. İnanırsan, güvənirsən, kimsə sənə vəd verir, söz verir və onun dəyişdiyini görürsənsə, bununla belə özünü bilə-bilə oda atırsansa, gedirsənsə, deməli, sən özünü yandırırsan. Amma mən çəkildim. Nişanımı qaytardım. İstəməzdim, bu barədə danışım. Sənətlə bağlı qadağalarım, ətrafımla bağlı qadağalarım məni ondan uzaqlaşdırdı. Bilirsiniz, sənətimlə bağlı qadağaları qəbul edə bilmərəm. Biz sənət insanları, səhnə insanları əli-qolu bağlı yaşaya bilmərik. Başa düşürsünüz? Elə yaşasaydıq, bu sənəti seçməzdik. Düzdürmü? Əgər sən sabah mənim yanımda olmayacaqsansa, mənə dəstək olmayacaqsansa, yaxud yanımda olub hansısa nüansa görə qanımı qaraldacaqsansa, mən səni nə edirəm?! Bütün bunlara görə ayrıldım...

***P.s. Müsahibə 18 sentyabr 2020-ci il tarixində alınıb.***

**Rövşən Tahir**

## *Messidən dünya rekordu - Peleni geridə qoydu*



**"Barselona"nın kapitanı Lioenel Messi daha bir rekorda imza atıb.**

**Qol.az xəbər verir ki, 33 yaşlı hücumçunun rekordu La Liqanın 15-ci turunda "Valyadolid"lə səfər matçında qeydə alınıb. Messi 3:0 hesabı ilə qalib gəldikləri oyunda fərqlənməklə Kataloniya klubundakı qol sayını 644-ə çatdırıb. Bununla da o, bir klubda ən çox qol vuran futbolçu adına yiyələnib.**

**Argentinalı futbolçu əfsanəvi Peleyə məxsus rekordu yeniləyib. Braziliyalı keçmiş hücumçu ölkəsinin "Santos" klubunda 643 qol vurub.**

**Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Quba rayon şöbəsi tərəfindən Quba rayon Timiryazev qəsəbə sakini Pənahov Cavanşir Natiq oğlunun adına verilmiş 24.01.2014 -cü il tarixli SX № 0200570 saylı hərbi bilet itdiyi üçün etibarsız sayılır.**

***

**Samux rayon Çobanabdallı kənd sakini Nəsibov Vahid Süleyman oğlunun adına verilmiş JN-696 kod: 50712018 saylı torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

Aqil Abbas **Rey Kərimoğluna** anası
**MƏDİNƏ QASIMOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu **Rey Kərimoğluna** anası
**MƏDİNƏ QASIMOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 22**
Çapa imzalanmışdır:
23.12.2020